Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 114 (7841) ÇƏRŞƏNBƏ AXŞAMI, 22 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Azərbaycan - Serbiya əməkdaşlığı uğurla davam edir

## Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi





Azərbaycan Respublikasında rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin mayın 21-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Serbiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Aleksandr Vuçiçi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Serbiya Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Aleksandr Vuçiç fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Serbiya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Serbiya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Aleksandr Vuçiçə, Serbiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Azərbaycan və Serbiya prezidentləri rəsmi foto çəkdirdilər.





*Azərbaycan Xalq Cümhuriyyəti - 100*

## Müsəlman Şərqində ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından 100 il ötür. Dövlət başçısının 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi Azərbaycan Xalq Cümhuriyyətinə verilən ən böyük qiymətdir.

### Cümhuriyyət dövrü hansı hadisələrlə yaddaşlara həkk olub?

Birinci Dünya müharibəsi və onun nəticəsi olan Fevral burjua inqilabı Rusiyada 300 ildən artıq hökmranlıq edən Romanovlar sülaləsini devirdi, zülm və əsarət altında inləyən məzlum xalqlar öz müqəddəratlarını təyin etmək imkanı əldə etdilər. O cümlədən, Qafqaz cəbhəsində Rusiya və Osmanlı arasında gedən hərbi əməliyyatlar Azərbaycanda iqtisadi, sosial-siyasi həyata ağır təsir göstərməklə bərabər, əsrin əvvəllərindən burada dərinləşən milli-demokratik prosesi, muxtariyyət ideyasını və son nəticədə müstəqilliyə olan meyli xeyli gücləndirdi.

Fevral inqilabından az sonra martın 3-də Rusiya Dövlət Dumasının Cənubi Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Tiflisdə Zaqafqaziyanın İdarəsi üzrə Xüsusi Komitə yaradıldı. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. Bura V.Xarlamov sədr, M.Papacanov, M.Cəfərov, K.Abaşidze və P.Pereverzev üzv təyin edildilər. Müvəqqəti hökumətin qərar və təlimatlarına uyğun olaraq ona Cənubi Qafqazda geniş hüquq və səlahiyyətlər verildi. Yəni Zaqafqaziyanın İdarəsi üzrə Xüsusi Komitə Müvəqqəti hökumətin idarə orqanı funksiyasını yerinə yetirməyə başladı. Lakin Xüsusi Zaqafqaziya Komitəsində Cənubi Qafqaz xalqları bərabər təmsil olunmadığı və aqrar məsələdə ardıcıl mövqe tutmadığına görə əhali ona etimad göstərmədi və o, güclü dövlət orqanı funksiyasını icra edə bilmədi.

1917-ci il martın əvvəllərində Bakıda Müvəqqəti hökumətin ali hakimiyyət orqanı kimi İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı. Bura həm fəhlə deputatları sovetlərinin, həm də şəhər dumasının və ictimai təşkilatların nümayəndələri daxil oldu. İcraiyyə komitəsinin tərkibində azərbaycanlı əhalinin təmsilçiləri M.H.Hacınski və M.Ə.Rəsulzadə də var idi.

Rusiyanın başqa sənaye mərkəzlərində olduğu kimi, Bakıda da fəhlə və əsgər deputatları sovetinin yaradılmasına başlandı. 1917-ci il martın 7-də 52 deputatdan ibarət Bakı Deputatları Soveti formalaşdı. Sovetin tərkibi qeyri-azərbaycanlılardan ibarət idi. Bakı Sovetinə qiyabi olaraq S.Şaumyan sədr seçildi. Cənubi Qafqazın başqa şəhərlərindən fərqli olaraq, Bakıda sovetlər nisbətən güclü idi.

Müvəqqəti hökumətin milli proqramını Rusiyanın bölünməzliyi prinsipi təşkil edirdi. Daha nüfuzlu partiyalar olan kadet, eser və menşeviklər milli məsələnin həllini gələcəkdə çağırılacaq Müəssislər Məclisinə tapşırır, burada milli-mədəni muxtariyyət prinsiplərini müdafiə edəcəklərini bəyan edirdilər.

Ardı 5-ci səh.

## Qeyri-neft sektorunun inkişafı sürətlənir, əhalinin gəlirləri artır, inflyasiya minimuma enir

### İlin 4 ayının makroiqtisadi göstəricilərinin qısa məzmunu belədir

Dövlət Statistika Komitəsi (DSK) cari ilin yanvar-aprel ayları üzrə ölkənin sosial-iqtisadi inkişafını əks etdirən makroiqtisadi göstəriciləri açıqlayıb. Hesabatda bildirilir ki, sözügedən dövr Azərbaycanda 22 milyard 969 milyon manatlıq və ya ötən ilin eyni dövründəkindən 1,2 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Dörd ay ərzində iqtisadiyyatın qeyri-neft sektorunda istehsal edilmiş əlavə dəyər 2,1 faiz artmış, neft sektorunda 0,1 faiz azalmışdır.

Yanvar-aprel aylarında ÜDM-in 48,4 faizi sənaye, 9,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi tikinti, 6,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə, 14 faizi digər sektorlarda istehsal edilmişdir. Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7 faizi həcmində olmuşdur. Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi isə 2346 manata çatmışdır.

DSK-nın hesabatına əsasən, qeyd edilən müddətdə ölkə üzrə 15 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da keçən ilin eyni dövründəkindən 0,9 faiz çoxdur. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10,8 faiz artmış, neft sektorunda 0,6 faiz azalma qeydə alınmışdır. Hesabat dövründə istehsal olunan sənaye məhsullarının 73 faizi mədənçıxarma, 21,9 faizi emal, 4,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşmüşdür.

Ardı 7-ci səh.

## Qürur doğuran yüksəliş

*Naxçıvan sürətli inkişaf yolundadır*

Minilliklərə söykənən tarixə və dövlətçilik ənənələrinə, zəngin mədəni dəyərlərə malik olan Azərbaycan keşməkeşli və şərəfli inkişaf yolu keçib. Bu yolda Azərbaycanın dövlətçilik tarixinə layiqli töhfələr vermiş hər bir yurdumuz kimi, Naxçıvanın da öz yeri var. Bu qədim Azərbaycan diyarı ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynayıb.

### 14-cü səfər

Ötən əsrin 90-cı illərinin əvvəllərində ağır günlərini yaşayan, blokada şəraitində olan Naxçıvan məhz Heydər Əliyevin sayəsində bütün təhlükələrdən xilas oldu, düşmən qarşısında mətanətlə dayandı. Vaxtilə ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlişi həm də Azərbaycanın müstəqil dövlətçiliyinin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Çünki ilk dəfə olaraq məhz ulu öndərin qətiyyəti və prinsipiallığı sayəsində müstəqil respublikamızın üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi, 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmiləşdirilməsi, Yeni Azərbaycan Partiyasının yaradılması bu qədim diyarın müstəqilliyimizə və dövlətçiliyimizə layiqli töhfəsidir.

Ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində isə Naxçıvan davamlı inkişaf və əmin-amanlıq yolu ilə inamla addımladı. Muxtar respublikanın inkişafının 2003-cü ildən sonrakı dövrü isə ulu öndər Heydər Əliyevin quruculuq xəttinin yaradıcı gücünün əyani ifadəsidir. Bu dövrdə Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da dinamik inkişaf yolu keçib. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası paytaxt Naxçıvan şəhəri ilə yanaşı, rayonların və ucqar dağ kəndlərinin də inkişafına səbəb olub. Ölkə rəhbərinin diqqət və qayğısının nəticəsidir ki, son 10 ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 10 dəfə artıb.

Bu günlərdə Prezident İlham Əliyevin Naxçıvana səfəri respublikamızın bu bölgəsinin yüksəlişinin dinamik, davamlı və nümunəvi olmasından xəbər verdi. Qeyd edək ki, bu, Prezident İlham Əliyevin dövlət başçısı kimi Naxçıvana sayca 14-cü səfəri idi. İlk səfər isə 14 il əvvəl, 2004-cü ilin may ayında olmuşdu. Bu müddətdə Prezidentin hər səfəri Naxçıvanın yüksəlişindən xəbər verməklə yanaşı, həm də həmin bölgənin inkişafında yeni mərhələnin əsasını qoyub.

### Aparılan işlər yüksək qiymətə layiqdir

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində öz qədimliyini və tarixiliyini qorumaqla bu gün də sürətlə inkişaf edən Naxçıvan Muxtar Respublikasında əsaslı dəyişikliklər baş verib, sənaye məhsulunun həcmi 34,4 dəfə, əsas kapitala yönəldilmiş investisiyalar 15,9 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 15,2 dəfə artıb. Yaradılan yüzlərlə istehsal müəssisəsində 72 mindən çox yeni iş yeri açılıb.

Ardı 7-ci səh.

# Azərbaycan - Serbiya əməkdaşlığı uğurla davam edir

## Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri

### Azərbaycan və Serbiya prezidentlərinin təkbətək görüşü olub



Mayın 21-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi. Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafına töhfə verəcəyi diqqətə çatdırıldı.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### Azərbaycan-Serbiya sənədləri imzalanıb





Mayın 21-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı"nı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç imzaladılar.

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Serbiya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumunu Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şiraliyev və Serbiya Respublikasının səhiyyə naziri Zlatibor Lonçar imzaladılar.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Serbiya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumu Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov və Serbiya Respublikasının ədliyyə naziri Nela Kuburoviç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişi Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov və Serbiya Respublikasının Baş nazirinin müavini, tikinti, nəqliyyat və infrastruktur üzrə nazir Zorana Mihayloviç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişi Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Serbiya Respublikasının Baş nazirinin müavini, tikinti, nəqliyyat və infrastruktur üzrə nazir Zorana Mihayloviç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqələri haqqında" Sazişi Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Serbiya Respublikasının Baş nazirinin müavini, tikinti, nəqliyyat və infrastruktur üzrə nazir Zorana Mihayloviç imzaladılar.

### Azərbaycan və Serbiya prezidentlərinin geniş tərkibdə görüşü



Mayın 21-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış etdilər.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər çox uğurlu keçəcək və Serbiya-Azərbaycan əlaqələrinin inkişafı üçün böyük dəstək olacaq.

Bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Biz dostuq, tərəfdaşıq, strateji tərəfdaşıq. Son illər ərzində əldə edilmiş uğurlar deməyə əsas verir ki, Serbiya-Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi sahədə əməkdaşlıq aparılır. Əminəm ki, bu gün aparılan danışıqlar nəticəsində bu sahəyə də yeni təkan veriləcəkdir. Humanitar sahədə çox gözəl əməkdaşlıq var.

Əlbəttə, bölgədə gedən proseslərlə bağlı biz bu gün Sizinlə fikir mübadiləsi apardıq. Əminəm ki, belə məsləhətləşmələrin çox böyük əhəmiyyəti var. Biz gələcəkdə energetika, nəqliyyat sahələrində daha fəal əməkdaşlıq edə bilərik. Bu məsələlərlə bağlı bizim fikirlərimiz var. Belə olan halda bizim münasibətlərimiz yeni mərhələyə, yeni pilləyə qalxacaqdır.

Bir sözlə, biz münasibətlərimizin inkişafı ilə bağlı bir fikirdəyik. Hesab edirəm ki, bu münasibətlərin çox böyük gələcəyi var. Serbiya bizim üçün dost ölkədir və əminəm ki, bu dostluq əlaqələri bundan sonra da davam etdiriləcək.

Sizə uğurlu səfər arzulayıram. Əminəm ki, səfər zamanı əldə edilmiş razılaşmalar gələcək uğurlu əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir. Bir daha xoş gəlmisiniz.

* * *

Serbiya Prezidenti **Aleksandr VUÇİÇ** dedi:

- Hörmətli cənab Prezident!

İlk növbədə, Sizi prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə təbrik edirəm və Azərbaycan xalqına firavanlıq arzulayıram. Eyni zamanda Sizi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə də təbrik etmək istəyirəm.

Sizi əmin edirəm ki, Serbiya Azərbaycan üçün dost ölkədir. Biz burada - Azərbaycanda, Bakı şəhərində özümüzü ən yaxın dostlarımızın evində hiss edirik.

Cənab Prezident, mən Sizin fəaliyyətinizə xüsusilə böyük önəm verirəm. Siz çox böyük səylər göstərirsiniz ki, ölkənizin suverenliyini və müstəqilliyini qoruyub saxlayasınız. Çünki hazırkı çox gərgin bir şəraitdə Siz ölkənizi firavanlıq yolu ilə irəli aparırsınız. Bununla yanaşı, Sizin siyasətinizi dəstəkləyən bütün ölkələrlə yaxşı münasibətlər qurmusunuz. Bu, olduqca çətin bir məsələdir. Biz Serbiya olaraq bu siyasətə böyük önəm verir və hörmət bəsləyirik.

Hesab edirəm ki, bizim birgə görəcəyimiz işlər kifayət qədərdir. Azərbaycanın maraqları baxımından Serbiyada görüləcək bir çox işlər var. Eyni zamanda bizim də burada görə biləcəyimiz işlər çoxdur. Düşünürəm ki, iqtisadiyyatımız gücləndikcə serb şirkətləri Azərbaycana cəlb oluna bilər.

Məlumat vermək istərdim ki, bu il bizim iqtisadi artımımız 4,5 faizə bərabər olmuşdur. Məndə olan məlumata görə, Sizin də qeyri-neft sektorunda 3 faiz artım olmuşdur. Bu münasibətlə də Sizi səmimi-qəlbdən təbrik edirəm.

* * *

Görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandr Vuçiç Xəzər dənizinin mənzərəsini seyr etdilər.



## Azərbaycan və Serbiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

Mayın 21-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfərin nəticələri Serbiya-Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin inkişafı üçün yeni imkanlar açacaqdır.

Biz strateji tərəfdaşıq və bu gün imzalanan sənədlər arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı imzalamışıq. Bu, çox geniş və əhəmiyyətli sənəddir. Bu sənəddə bizim gələcək əməkdaşlığımızla bağlı bütün önəmli məsələlər öz əksini tapmışdır.

Biz beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi dəstəkləyirik. Bütün önəmli məsələlərdə bir-birimizə dəstək göstəririk. Ölkələrimizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı məsələlərdə bütün beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik. Üzləşdiyimiz münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrimizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində öz həllini tapmalıdır. Bu məsələ ilə bağlı biz daim bir-birimizə qarşılıqlı dəstək göstəririk və bundan sonra da göstərəcəyik.

Bu gün müzakirə olunan məsələlər arasında bizim iqtisadi əməkdaşlıq məsələləri də geniş yer almışdır. Biz bu istiqamətdə atılan addımları yüksək qiymətləndiririk. Ancaq, eyni zamanda tam əminik ki, mövcud ticarət dövriyyəsi bizim iqtisadi potensialımızı əks etdirmir. Artım var, ancaq mütləq rəqəmlər hələ də çox aşağıdır. Ona görə əminəm ki, səfər zamanı müzakirə olunan və olunacaq məsələlər gələcəkdə ticarət dövriyyəsinin artırılmasına gətirib çıxaracaq, bunun üçün yaxşı imkanlar var.

Energetika sahəsində əməkdaşlıq üçün perspektivlər ümidvericidir. Bu məsələ imzalanan Fəaliyyət Planında öz əksini tapmışdır. Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarıdır və fəal iştirakçısıdır. Onların arasında "Cənub qaz dəhlizi" layihəsi xüsusi yer tutur. Gələn günlər ərzində biz artıq "Şahdəniz-2" layihəsinin başa çatmasını qeyd edəcəyik. Gələn ay TANAP layihəsi istismara verilməlidir. Beləliklə, "Cənub qaz dəhlizi"nin əsas layihələri artıq başa çatmış olacaqdır. Bu, enerji təhlükəsizliyi məsələlərinə Azərbaycanın növbəti töhfəsidir. Bu nəhəng enerji layihəsi geniş beynəlxalq əməkdaşlıq məsələlərinin həllinə də öz müsbət təsirini göstərmişdir. Hazırda bizim regionumuzda enerji sahəsində əməkdaşlıq yeni səviyyəyə qalxır.

Ötən ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi ilə bağlı Bakıda mərasim keçirilmişdir. Bu yol da çox böyük əhəmiyyətə malikdir. Bu yolun fəaliyyətə başlaması nəticəsində Asiya ilə Avropa Azərbaycan və digər ölkələr üzərindən bir-biri ilə bağlanır. Bu, Asiyadan Avropaya və əks istiqamətə ən qısa yoldur. Yüklər artıq bu yol vasitəsilə daşınır və yüklərin həcmi getdikcə daha da artacaq. Əlbəttə ki, biz Serbiyanı bu dəmir yolunun fəal iştirakçısı kimi görürük. Hesab edirəm, bizim müvafiq qurumlarımız bu məsələ ilə bağlı artıq danışıqlara başlaya bilərlər ki, biz yükdaşımalarını artıra bilək. Beləliklə, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri geniş əməkdaşlıq üçün yeni imkanlar açır. Bu, turizmin inkişafına təkan verəcək, qarşılıqlı ticarət dövriyyəsini artıracaq və beləliklə, bölgəmizdə, Avrasiya məkanında sabitliyi möhkəmləndirəcək, təhlükəsizliyi təmin edəcəkdir.

Serbiya ilə Azərbaycan arasındakı əlaqələrdə humanitar sahə çox önəmli yer tutur. Cənab Prezident, bilirəm ki, Siz Azərbaycan Dillər Universitetində "Serb Dili və Mədəniyyəti Mərkəzi"nin açılışında da iştirak edəcəksiniz. Əminəm, bilirsiniz və görəcəksiniz ki, Sizin xalqınıza, xalqınızın mədəniyyətinə, ədəbiyyatına Azərbaycanda çox böyük maraq, böyük hörmət var. Humanitar sahədə mövcud olan əlaqələr xalqlararası əlaqələrin inkişafında mühüm yer tutur.

Hesab edirəm ki, turizm sahəsinin qarşılıqlı şəkildə inkişaf etdirilməsi həm ölkələrimizə gəlir gətirəcək, həm də insanlar bir-birini daha yaxından tanıyacaqlar, dost olacaqlar, necə ki, bizim ölkələr. Bizim ölkələrimiz dost ölkələrdir, qeyd etdiyim kimi, strateji tərəfdaşlardır. Əminəm, səfərdən sonra əlaqələrimizə yeni dinamika, yeni təkan veriləcəkdir ki, Serbiya ilə Azərbaycan daim bir-birini dəstəkləyən, bir-birinə kömək edən ölkələr kimi fəaliyyət göstərsinlər.

Sizin ölkənizdəki işlərlə bağlı apardığınız siyasəti biz yüksək qiymətləndiririk. Siz Serbiyanın müstəqil siyasətini müdafiə edirsiniz, ölkənizi inamla idarə edirsiniz. Xalq Sizə böyük dəstək göstərir. Sizin siyasətiniz Serbiya xalqı tərəfindən yüksək qiymətləndirilir. Biz Sizin dostlarınız kimi buna sevinirik. Əminik ki, Serbiya-Azərbaycan əlaqələri bundan sonra da Sizin gündəliyinizdə önəmli yer tutacaqdır. Serbiya ilə əlaqələr bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, gələcəkdə bu əlaqələrin uğurlu inkişafı üçün bütün imkanlar, şərait var. Əsas odur ki, çox güclü qarşılıqlı müştərək iradə var. Hesab edirəm ki, biz gələcək illəri də bu arzularla yaşayacağıq, Serbiya-Azərbaycan əlaqələrini inkişaf etdirəcəyik. Sağ olun.

* * *

Sonra Serbiya Prezidenti bəyanatla çıxış etdi.

Bax: səh. 3

# Azərbaycan və Serbiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

## Prezident Aleksandr Vuçiçin bəyanatı

- Hörmətli cənab Prezident, əziz dostum cənab Əliyev.

Sizə bu səmimi və xoş sözlərinizə görə təşəkkür etmək istəyirəm. Azərbaycan ilə Serbiya arasında əlaqələrin inkişafı baxımından gördüyünüz bütün işlərə görə Sizə təşəkkürümü ifadə etmək istərdim.

Düşünürəm ki, mən Sizin Prezident seçilməyinizdən sonra ölkənizə səfər edən ilk dövlət başçısıyam. Bu, mənim üçün çox böyük şərəfdir. Azərbaycan ilə dostluq münasibətlərinin inkişafı bizim üçün çox vacibdir. Bu, bizim dövlətlərimizin və xalqlarımızın maraqlarına tam uyğundur. Bizim əməkdaşlığımız üçün çox böyük meydan var. Məhz bu səbəbdən də mən bizim hökumətimizin, demək olar ki, tam yarısı ilə Azərbaycana səfərə gəlmişəm. Çünki biz Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmindəyik.

Mənim ölkəmin müstəqilliyinin və suverenliyinin dəstəklənməsinə görə minnətdarıq. Biz də öz növbəmizdə Azərbaycanın müstəqilliyini və suverenliyini dəstəkləyirik. Hər iki ölkənin bu mövqeyi dəyişməz olaraq qalacaqdır. Cənab Prezident, biz Sizin siyasətinizi çox yüksək qiymətləndiririk. Siz elə bir şəxsiyyətsiniz ki, ölkənizin müstəqilliyini qoruyursunuz, öz azadlığınızı qoruyursunuz və vətəndaşların firavanlığı naminə əlinizdən gələni edirsiniz. Çünki Sizin ölkəniz olduqca mürəkkəb regionda, müxtəlif regionların kəsişməsində yerləşir və Siz ölkənizi nümunəvi şəkildə qoruyub saxlaya bilmisiniz.



Eyni zamanda, iqtisadi maraqlarınız da təmin edilir. Münasibətlərimizin təkmilləşdirilməsində bizim böyük potensialımız var. Bu yaxınlarda bizim hökumətlərarası komissiyanın iclası olacaqdır. Sonuncu iclas 2015-ci ildə olmuşdur. Düşünürəm ki, müxtəlif nəqliyyat layihələrinin icrasında fəal əməkdaşlıq edə bilərik. Azərbaycan şirkəti Serbiyada yol tikintisində uğurla fəaliyyət göstərir. Bununla yanaşı, müxtəlif kənd təsərrüfatı məhsullarının alqı-satqısı sahəsində, mədəniyyət, idman və digər sahələrdə daha böyük nailiyyətlər əldə edə bilərik. Təbii ki, bizim hərbi-texniki və hərbi təhsil sahələrində də böyük potensialımız var. Düşünürəm ki, bunlar da çox vacib sahələrdir.

Çox müsbət haldır ki, ölkələrimiz arasında heç bir mübahisəli məsələ yoxdur. Biz müxtəlif beynəlxalq təşkilatlarda bir-birimizi tam şəkildə dəstəkləyirik.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizi burada, media qarşısında Serbiyaya rəsmi səfərə dəvət edirik. Siz orada bizim xalqın qonaqpərvərliyinin, həm Sizə, həm də ölkənizə olan rəğbət və ehtiramın şahidi olacaqsınız. Azərbaycan bizə dost ölkədir və tezliklə Sizi Belqradda görmək ümidindəyik.

Sizi təbrik edirəm ki, ölkənizin qeyri-neft sektorunda 3 faizlik artım qeydə alınıb. Görürəm ki, Siz iqtisadiyyatın şaxələndirilməsinə böyük önəm verirsiniz. Bu da əsl siyasi rəhbərə xas olan bir xüsusiyyətdir. Bizim yaxşı münasibətlərimiz var. Artıq üç ildir ki, bizim büdcəmizdə artım müşahidə olunur. Bu da bizə daha yüksək səviyyədə qarşılıqlı sərmayə qoyuluşu baxımından yaxşı imkanlar yaradır.

Cənab Prezident, səmimi dostluğa görə Sizə bir daha təşəkkürümü bildirirəm və Sizi tezliklə Belqradda görmək ümidindəyəm. Sağ olun.

# Azərbaycanın Baş naziri Novruz Məmmədov və Serbiya Prezidenti Aleksandr Vuçiç birgə işçi nahar ediblər



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 21-də birgə işçi nahar ediblər.

AZƏRTAC xəbər verir ki, səmimi söhbət zamanı Azərbaycan ilə Serbiya arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma




Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 21-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Nadir Hüseynov və digər rəsmi şəxslər qarşıladılar.

# Ali qonağın şərəfinə

Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin şərəfinə rəsmi ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Serbiya Prezidenti ilə keçirdiyi görüşlərin ölkələrimiz arasında xüsusi əməkdaşlıq formatı yaratdığını dedi. Dost və strateji tərəfdaş olan ölkələrimiz arasında bir neçə il öncə imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamənin və bu səfər çərçivəsində imzalanan strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin çox güclü təməl üzərində qurulduğunu qeyd etdi. Prezident İlham Əliyev bundan sonra da Azərbaycan ilə Serbiya arasında müxtəlif sahələr üzrə məsləhətləşmələrin davam etdiriləcəyinə əminliyini ifadə etdi, ölkələrimizin qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan əlaqələrinin əhəmiyyətini vurğuladı.



Serbiya Prezidenti Aleksandr Vuçiç yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür etdi. Ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu deyən Serbiya Prezidenti bu münasibətlərin qarşılıqlı inama və etimada söykəndiyini bildirdi. Qeyd etdi ki, ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanlar var. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən möhtəşəm işlərin şahidi olduğunu deyən Aleksandr Vuçiç Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin dərinləşdirilməsi üçün münbit şəraitin yaranmasının əhəmiyyətini vurğuladı. Sonda Serbiya dövlətinin başçısı ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını çatdırdı.

# Beynəlxalq Əmək Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıq uğurla davam etdiriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayderin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Əmək Təşkilatının baş direktorunun Azərbaycana ilk dəfədir səfər etdiyini deyən Qay Rayder bu səfəri həyata keçirməyindən dərin məmnunluq hissi duyduğunu vurğuladı. Dövlət başçısını yenidən Prezident seçilməsi münasibətilə təbrik edən Qay Rayder Prezident İlham Əliyevin inauqurasiya mərasimindəki çıxışını diqqətlə izlədiyini qeyd edərək orada əmək və sosial məsələlərlə bağlı söylənilən fikirlərin çox böyük maraq doğurduğunu bildirdi. O qeyd etdi ki, Prezident İlham Əliyevin əhalinin rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi, iş yerlərinin yaradılması ilə bağlı söylədiyi fikirlər mühüm əhəmiyyət daşıyır. Qay Rayder rəhbərlik etdiyi təşkilatın Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq bu səfərin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.



Təbrikə və xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda keçirilən "Dayanıqlı İnkişaf Məqsədlərinə doğru davamlı inkişafın və layiqli əməyin təbliği" mövzusunda beynəlxalq konfransın əhəmiyyətini qeyd etdi. Dövlət başçısı son illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafı, o cümlədən əhalinin əmək və sosial təminatı istiqamətində mühüm işlər görüldüyünü, xüsusilə işsizliyin sürətlə azaldılması ilə bağlı böyük uğurların əldə edildiyini dedi. Prezident İlham Əliyev Azərbaycanda ənənəvi olan və sürətli iqtisadi inkişaf nəticəsində baş verən demoqrafik artımla əlaqədar ölkə qarşısında gələcəkdə yeni iş yerlərinin yaradılması kimi mühüm vəzifənin durduğunu bildirdi və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirildiyini vurğuladı. Dövlətimizin başçısı Beynəlxalq Əmək Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın önəminə toxunaraq bu əməkdaşlığın uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi.

## Y.V.Eyvazova "Xalq artisti" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Yusif Vilayət oğlu Eyvazova "Xalq artisti" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2018-ci il*

## A.Y.Netrebkonun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında musiqi sənəti sahəsində əməkdaşlığın möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə Anna Yuryevna Netrebko "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2018-ci il*

# Moskva Beynəlxalq Mühəndislik Akademiyasının ümumi yığıncağına azərbaycanlı alim sədrlik edib

Moskva Beynəlxalq Mühəndislik Akademiyasının (BMA) 2017-ci ildəki fəaliyyətinin yekunlarına dair ümumi yığıncaq keçirilib.

AZƏRTAC xəbər verir ki, ümumi yığıncağın işinə sədrlik tədbir iştirakçılarının yekdil qərarı ilə Azərbaycan Mühəndislik Akademiyasının (AMA) vitse-prezidenti akademik Əhəd Canəhmədova həvalə olunub. Akademik Əhəd Canəhmədov AMA-nın 2017-ci ildəki fəaliyyəti barədə ətraflı məlumat verib.

BMA-nın prezidenti akademik Boris Qusev 12 ölkədən akademiyanın üzvü olan 230 nəfərin iştirak etdiyi yığıncaqda hesabat məruzəsi ilə çıxış edib.

Yığıncaq ərəfəsində Moskvada nəşr olunan "Инженерная Газета"nın may nömrəsində Azərbaycan Mühəndislik Akademiyasının (AMA) prezidenti akademik Arif Paşayevin "Yolların kəsişməsində və elmi istiqamətlər" sərlövhəli geniş məqaləsi dərc edilib.



ИДЕМ НА ПРОРЫВ

Президент Российской Федерации Владимир Путин

На перекрестье дорог и научных направлений

Президент Азербайджанской инженерной академии, академик Ариф Пашаев

Азербайджанская инженерная академия (АИА) объединяет в своих рядах докторов и кандидатов наук, профессоров и доцентов ведущих научно-исследовательских организаций и вузов, основателей инженерных научных направлений. Среди членов академии – лауреаты Государственной премии, заслуженные деятели науки и техники, обладатели других почетных званий.

Вступая в должность Президента России, особенно остро осознаю свою колоссальную ответственность перед всем нашим многонациональным народом, ответственность перед Россией – страной грандиозных побед и свершений, перед тысячелетней историей российской государственности и нашими предками. Их мужество, неустанный труд, непобедимое единство, священное отношение к родной земле – вечный пример преданности Отчизне.

Считаю своим долгом и смыслом всей своей жизни сделать все для России, для ее настоящего и будущего – мирного и процветающего, для сбережения и продолжения нашего великого народа, для благополучия в каждой российской семье. Заверяю вас, целью моей жизни, работы будет, как и

Qəzetin həmin nömrəsi yığıncaq iştirakçılarına paylanıb. Müəllif məqalədə müasir elmi-texniki nailiyyətlərə əsaslanmaqla ölkəmizin dayanıqlı iqtisadi strategiyasının formalaşmasında həm transregional "Şərq-Qərb" dəhlizinin, həm də neft-qaz sektorunun inkişafı istiqamətində görülən işlərdən ətraflı bəhs edib.

Akademik Arif Paşayevin məqaləsi tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilib.

Ümumi yığıncaqda, həmçinin Beynəlxalq Mühəndislik Akademiyasının nizamnaməsinə dəyişiklik edilib və müvafiq qərarlar qəbul olunub.

# "İnsan hüquqları aylığı" çərçivəsində Azərbaycan Ordusunda bir sıra tədbirlər keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən ölkəmizdə hər il qeyd olunan 18 iyun - İnsan Hüquqları Günü münasibətilə respublikamızda "İnsan hüquqları aylığı" keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ay ərzində Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində insan hüquqlarının və azadlıqlarının mahiyyəti, onların pozulmasının qarşısının alınması yolları mövzularında konfranslar, "dəyirmi masa"lar, kitab sərgiləri, müsabiqələr, xüsusi dərslər, əhali ilə görüşlər, maarifləndirici seminarlar və digər tədbirlər təşkil olunacaq.

Bu tədbirlərdə iştirakçıları maraqlandıran suallar mütəxəssislər, ekspertlər, hüquqşünaslar tərəfindən cavablandırılacaq.

# Ermənistan ordusunun keçirdiyi təlimlərdə taktiki və ordu aviasiyasından istifadə ilə bağlı xəbərlər şişirdilib

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində keçirdiyi təlimlər zamanı guya taktiki və ordu aviasiyasından istifadə edilməsi ilə bağlı Ermənistan mətbuatının yaydığı xəbər şişirdilib və daxili auditoriyaya hesablanıb. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, təlimlər zamanı Ermənistan silahlı qüvvələrinə məxsus yalnız "Mi-24" tipli iki helikopter və "Su-25" tipli iki təyyarə mayın 16-da və 17-də uçuşlara cəlb edilib. Helikopterlər mayın 16-da saat 08.45-də Erebuni aerodromundan qalxaraq Vardenis-Zod istiqamətində və geriyə uçuşlar həyata keçiriblər. Təyyarələr isə mayın 17-də saat 09.44-də Ermənistanın Gümrü aerodromundan qalxaraq Sisian istiqamətində uçuş keçirib və dönmə manevri edərək saat 10.45-də Erebuni aerodromuna eniş ediblər.

"Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunlarının radiolokasiya stansiyaları ölkəmizin hava məkanında hərəkət edən bütün aviasiya vasitələrini izləyir və onların uçuş marşrutları barədə məlumatlar dərhal Hərbi Hava Qüvvələrinin Komanda Məntəqəsinə avtomatik rejimdə ötürülür.

Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunları arsenalında olan ən müasir silah kompleksləri ilə ölkəmizin hava hüdudlarını pozan istənilən hava hədəflərini məhv etməyə qadirdir.

Bir daha düşmənin bu kimi informasiya təxribatlarına uymamağa çağırırıq", - deyə nazirliyin açıqlamasında vurğulanıb.

# Yeni Azərbaycan Partiyası ilə Laos Xalq İnqilabı Partiyası arasında əməkdaşlığa dair Memorandum imzalanıb



Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov ölkəmizdə səfərdə olan Laos Xalq İnqilabı Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr komitəsinin sədri xanım Sounton Sayaçakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov bu səfərin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına xidmət edəcəyini bildirib. O deyib ki, Yeni Azərbaycan Partiyası və Laos Xalq İnqilabı Partiyası iqtidar partiyalarıdır və hər iki siyasi təşkilat əlaqələrin inkişafında maraqlıdır.

Azərbaycan dövlətinin xarici siyasətində Asiya ölkələri ilə əlaqələrin vacib yer tutduğunu deyən Əli Əhmədov hələ Sovetlər Birliyi dövründə Laos vətəndaşları olan gənclərin Azərbaycanda ali təhsil aldıqlarını xatırladıb.

YAP sədrinin müavini iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin inkişafı üçün yaxşı perspektivlərin olduğunu diqqətə çatdırıb və YAP ilə Laos Xalq İnqilabı Partiyası arasında əməkdaşlığın bütövlükdə ölkələrimiz arasında münasibətlərin inkişafına xidmət edəcəyini vurğulayıb.

Laos Xalq İnqilabı Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr komitəsinin sədri Sounton Sayaçak Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək iki ölkə arasında münasibətlərin inkişafında maraqlı olduqlarını bildirib. Azərbaycanın dinamik inkişaf etdiyini deyən qonaq ölkəmizin regionda oynadığı rolun əhəmiyyətini vurğulayıb. O, Laos Xalq İnqilabı Partiyasının Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi aparılıb.

Sonda Yeni Azərbaycan Partiyası ilə Laos Xalq İnqilabı Partiyası arasında əməkdaşlığa dair Memorandum imzalanıb. Memorandumu YAP icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov və Laos Xalq İnqilabı Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr komitəsinin sədri Sounton Sayaçak imzalayıblar.

Görüşdə YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva da iştirak edib.

# Beynəlxalq Əmək Təşkilatının baş direktoru Azərbaycanda həyata keçirilən sosial islahatlar barədə məlumatlandırılıb

Mayın 21-də Azərbaycan Respublikasının Baş nazirinin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov ölkəmizdə səfərdə olan Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayderin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazirin müavini Əli Əhmədov bildirib ki, Azərbaycanda insanların işlə təmin olunması ilə bağlı bir çox layihələr həyata keçirilir və son illərdə ölkəmizdə məşğulluq problemlərinin həllinə dair vacib addımlar atılır.

Baş nazirin müavini qeyd edib ki, Prezident İlham Əliyevin məqsədyönlü islahatlar proqramı ölkə iqtisadiyyatının prioritet sahələrinin qısa dövr ərzində mühüm irəliləyişlərə nail olunmasına imkan verib. Azərbaycanın Beynəlxalq Əmək Təşkilatının İdarə Heyətində yer almasının sevindirici hal olduğunu diqqətə çatdıran Əli Əhmədov ölkəmizin üzərinə düşən bütün öhdəlikləri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib. O, əməkdaşlığımızın bundan sonra da inkişaf edəcəyini və daha səmərəli olacağını vurğulayıb.

Əli Əhmədov qeyd edib ki, son illərdə Azərbaycanda bütün sosial proqramlar uğurla davam etdirilir, bu proqramların getdikcə daha da genişləndirilməsi təmin olunur.



Baş nazirin müavini deyib ki, Azərbaycan müstəqil və nisbətən gənc dövlətdir. Bizim artıq 10 milyona yaxın əhalimiz var. Hər bir gənc dövlətlərdə olduğu kimi, Azərbaycanda da bəzi problemlər var. Azərbaycanın xüsusi olaraq böyük və ciddi problemi torpaqlarının işğalı ilə nəticələnən Dağlıq Qarabağ problemidir. Bu problem nəticəsində bir milyon azərbaycanlı doğma torpaqlarından didərgin düşüb. Bu da təxminən əhalinin 10 faizini əhatə edir və bilavasitə məşğulluq məsələlərinə öz təsirini göstərir. İnsanlar torpaqlarını, eyni zamanda işlərini itiriblər. Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayder Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Azərbaycanın iş təcrübəsinin təqdirəlayiq olduğunu bildirən qonaq ölkəmizdə əmək bazarının inkişafı sahəsində aparılan islahatların, aktiv məşğulluq tədbirlərinin daha geniş miqyasda həyata keçirilməsi, məşğulluq xidmətlərinin təkmilləşdirilməsi işində həyata keçirilən layihələrin Beynəlxalq Əmək Təşkilatı tərəfindən dəstəkləndiyini qeyd edib.

# Layiqli əməyin təbliği dayanıqlı inkişafın prioritet məsələlərindən biridir




Mayın 21-də Bakıda "Dayanıqlı İnkişaf Məqsədlərinə doğru: davamlı inkişaf və layiqli əməyin təbliği" mövzusunda beynəlxalq konfrans keçirilib.

"Əməyin arzuolunan gələcəyi" mövzusunda plenar sessiyada çıxış edən Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərin icrası sahəsində ölkəmizdə aparılan işləri diqqətə çatdırıb. Ə.Əhmədov 8-ci Davamlı İnkişaf Məqsədinin, yəni tam və məhsuldar məşğulluğa, hər kəs üçün layiqli əməyə nail olunmasının Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin əsas məqsədlərindən biri olduğunu, bu istiqamətdə ölkəmizdə mühüm addımların atıldığını vurğulayıb.

Baş nazirin müavini çıxışında son illər ölkəmizdə 1,9 milyon yeni iş yerinin açıldığını və hər il 1,1-1,2 faiz əhali artımının qeydə alındığını bildirib. "Bu, o deməkdir ki, ölkəmizin əmək bazarına hər il 100 min yeni iş qüvvəsi daxil olur və onların məşğulluğunun təmin edilməsi üçün lazımi tədbirlər görülməlidir",- deyə Ə.Əhmədov qeyd edib.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) baş direktoru Qay Rayder çıxış edərək Azərbaycana ilk dəfə səfər etdiyini bildirib. O, bu səfərdən və hazırkı konfransda iştirak etməkdən məmnunluğunu ifadə edib. Ölkəmizin ötən il BƏT-in İdarə Heyətində təmsil olunmaq hüququ qazandığını qeyd edən Q.Rayder diqqətə çatdırıb ki, dünyada, xüsusən də əmək dünyasında baş verən dəyişikliklərin mahiyyətini anlamaq lazımdır. Həmin proseslərin iş yerlərinin artmasına, yaxud azalmasına səbəb olacağı sualı ortaya çıxır. Eyni zamanda baş verən dəyişikliklər fonunda bərabərsizliyin artması meyilləri də özünü göstərir. BƏT-in baş direktoru bu baxımdan əmək dünyasında özünü göstərən proseslərə yanaşmada ilk növbədə sosial ədalətin, işçilərin əmək və sosial hüquqlarının qorunmasına diqqətin, qurumun missiyasının da sosial ədalətlə bağlı olduğunun vacibliyini qeyd edib. Q.Rayder Dayanıqlı İnkişaf Məqsədlərinin bugünkü dünya üçün aktuallığından bəhs edib, Azərbaycanın bu məqsədlərin icrası üçün göstərdiyi səyləri dəstəklədiyini bildirib.

Qeyd olunub ki, konfransın Bakıda keçirilməsi Azərbaycanda dayanıqlı iqtisadi inkişaf şəraitində əhalinin məşğulluq imkanlarının artırılması üçün həyata keçirilən fəal siyasətə görə ölkəmizin BMT-nin 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərindən 8-ci Məqsədin - layiqli əmək və iqtisadi inkişaf icrası ilə bağlı region üzrə fokus ölkə seçilməsindən irəli gəlir.

Sessiyada "Baku Expo 2025" ilə əlaqədar videoçarx nümayiş olunub.

"Dayanıqlı İnkişaf Məqsədlərinə doğru davamlı inkişafın və layiqli əməyin təbliği" mövzusunda beynəlxalq konfransda "İqtisadi inkişafın inklüziv, davamlı və iş yerlərinin açılması baxımından zəngin olmasını necə təmin etmək olar", "Qeyri-rəsmi iqtisadiyyatdan rəsmi iqtisadiyyata keçid", "Dayanıqlı İnkişaf məqsədləri üzrə monitorinq sistemlərinin tətbiqi" mövzularında panel iclasları keçirilib və müvafiq mövzularda məruzə və təqdimatlar edilib.

***AZƏRTAC***

## *Akademik Abel MƏHƏRRƏMOV:*

# "Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır"



Mayın 21-də Bakı Dövlət Universitetinin (BDU) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Azərbaycan Cümhuriyyəti - 100: müsəlman Şərqində ilk parlamentli respublika" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, BDU-da təşkil edilən tədbir Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyinə həsr olunub. Üç gün davam edəcək konfransa Türkiyə, Gürcüstan, ABŞ, Moldova, Rusiya, Küveyt, Polşa, Qazaxıstan, Özbəkistan və digər ölkələrdən otuzadək alim qatılıb. Tədbirin açılış mərasimində dövlət və hökumət rəsmiləri, Azərbaycanın elm və təhsil ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları iştirak ediblər.

Tədbirdə BDU-nun rektoru, akademik Abel Məhərrəmov ümummilli lider Heydər Əliyevin AXC-nin fəaliyyətinə yüksək qiymət verdiyini, həmin dövrün dövlətçilik tariximizin parlaq səhifələrindən olduğunu söyləyib.

Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi haqqında" sərəncamını xatırladan rektor 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsini xalqımızın həyatında misilsiz hadisə kimi dəyərləndirib. Vurğulanıb ki, bu, müsəlman Şərqində ilk parlamentli respublika olan AXC-yə verilən tarixi qiymətdir. Xalqımız 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Cümhuriyyətin ideallarını davam etdirərək bu tarixi varislik üzərində yeni müasir müstəqil Azərbaycan dövlətini yaradıb. Cümhuriyyətin gördüyü mühüm işlərdən biri də 1919-cu ildə BDU-nun təsis edilməsidir. Belə ki, həmin dövrdə yaradılmış, ölkənin ilk ali məktəbi olan bu universitet məhz AXC-nin yadigarıdır və biz onun bütün ənənələrini layiqincə davam etdiririk.

Rektor müstəqilliyimizin bərpasında, yeni dövlətimizin qurulmasında və qorunmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini diqqətə çatdırıb.

QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, 1918-ci il mayın 28-də qurulmuş və cəmi 23 ay yaşamış AXC zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb. Azərbaycan xalqı müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verməklə bütün dünya demokratiyasına böyük töhfə verib.

A.Paşazadə deyib: "AXC-nin qəbul edilmiş bayrağının üçrəngli olması və islami dəyərlərin burada həkk edilməsi onu göstərir ki, Cümhuriyyət din-dövlət münasibətlərinin tənzimlənməsi üçün əlindən gələni əsirgəməyib. Təəssüf ki, 1920-ci ilin aprelində XI rus ordusu Azərbaycanı işğal edib və 23 aylıq fəaliyyətdən sonra AXC süquta yetirilib. İşğaldan cəmi iki həftə sonra bolşevik hökumətinin Xalq Maarifi Komissarlığı vicdan azadlığı haqqında dekret verib. Dekretə görə, özəl və dövlət məktəblərində dini təlimin tədrisi və hər hansı dini ayinin icrası qadağan olunub. Bolşeviklər ruhaniləri xalq düşməni elan edərək əmlaklarını əlindən alır, Sibirə göndərir və əksəriyyətini güllələyirdilər".

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov bildirib ki, cəmi 23 ay mövcud olmasına baxmayaraq, AXC qısa müddətdə tarixi bir missiyanı yerinə yetirərək çox genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub. Azərbaycan parlamenti bütün müsəlman Şərqində o dövrün demokratik prinsipləri əsasında formalaşdırılan ilk parlament olub. Üç ayda parlamentdə təxminən 270-dək qanun layihəsi müzakirəyə çıxarılıb. Onlardan 230-u qəbul olunub. Parlament qəbul etdiyi qərarlarla milli dövlətçiliyin əsaslarının formalaşdırılması və gücləndirilməsinə tarixi töhfələr verib.

AXC qurucularının gördükləri böyük işlərdən danışan Z.Əsgərov onların müsəlman Şərqində ilk demokratik respublika yaratdıqlarını söyləyib. Qeyd edilib ki, AXC yarandığı gündən xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Həm xaricdən, həm də daxildən daşnak ermənilər, həmçinin menşevik qüvvələr Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına mane olublar. Lakin bütün bu çətinliklərə baxmayaraq, Cümhuriyyət dövründə Milli Ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı bildirib ki, Azərbaycan dövlətçilik ənənələrinin və milli dövlətçilik şüurunun qorunmasında AXC-nin mühüm rolu olub. Bu dövrdə AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verib. XX əsrin əvvəllərində ölkəmizdə yaranan ilk təşkilatlardan söz açan M.Qasımlı Cümhuriyyət dövründə görülən böyük işləri tarixi faktlarla diqqətə çatdırıb.

Sonra ABŞ-ın Prinston Universitetinin professoru Maykl Reynoldsun mövzuya dair məruzəsi dinlənilib. BDU-nun tarixini əks etdirən filmin nümayişindən sonra tədbir bədii hissə ilə davam etdirilib. Mayın 23-dək davam edəcək konfransın bölmə iclaslarında yerli və xarici alimlərin 300-dən çox elmi məruzəsi dinləniləcək.

# *Sounton SAYAÇAK:* "Laos Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlıdır"

Mayın 21-də Milli Məclisin vitse-spikeri Bahar Muradova Laos Xalq İnqilabı Partiyası Mərkəzi Komitəsinin (XİP MK) xarici əlaqələr komitəsinin sədri xanım Sounton Sayaçakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə AZƏRTAC-a parlamentin mətbuat xidmətindən məlumat verilib.

Milli Məclis Sədrinin müavini ölkəmizdə səfərdə olan Laos nümayəndə heyətinə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyada maraqlı olduğunu, Avropa ilə əməkdaşlığa ciddi əhəmiyyət verildiyi kimi, Asiya ölkələri ilə də əməkdaşlığın genişlənməsinə maraq göstərdiyini qeyd edib. O cümlədən Hind-Çin yarımadası ölkələri ilə siyasi, iqtisadi, ticarət və mədəni əlaqələr qurmağa hazır olduğumuzu bildirib. Xatırladıb ki, hələ sovet dövründə təhsil sahəsində əlaqələrimiz var idi, Laos gəncləri ali təhsil almaq üçün Azərbaycana gəlirdilər.

Vitse-spiker bu gün Yeni Azərbaycan Partiyası (YAP) ilə Laos Xalq İnqilabı Partiyası arasında əməkdaşlığa dair Memorandumun imzalanmasını yüksək dəyərləndirib. O, Azərbaycan-Laos əlaqələrinin genişləndirilməsi baxımından hər iki ölkənin parlamentində dostluq qruplarının yaradılmasını vacib sayıb.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan parlamentinin 100 illik tarixindən və yubileyindən söz açan Bahar Muradova Milli Məclisin tərkibi və strukturu barədə məlumat verib. Bildirib ki, parlamentdə 12 siyasi partiyanın nümayəndəsi var. Çoxluq YAP-a məxsusdur. 39 nəfər bitərəf deputatdır. Parlamentdə 15 komitə, 2 komissiya fəaliyyət göstərir.

Görüşdə nümayəndə heyətinin başçısı Sounton Sayaçak Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan parlamentinin 100 illik yubileyi, həmçinin bu yaxınlarda keçirilmiş prezident seçkilərinin uğurla nəticələnməsi münasibətilə təbriklərini çatdırıb. O, təmsil etdikləri qurum barədə ətraflı məlumat verib. Bildirib ki, vaxtilə Bakıda təhsil almış laoslular Laos-Azərbaycan Dostluq Cəmiyyəti yaradırlar. Həmin cəmiyyət də münasibətlərimizin inkişafına öz töhfəsini verəcək. Qeyd edib ki, ölkəmizdən ayrıldıqları illər ərzində Bakı çox dəyişib və daha da gözəlləşib. Laos və XİP MK Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlıdır. Xanım Sounton Sayaçak Milli Məclisin deputatlarını ölkəsinə dəvət edib.

Söhbət zamanı ikitərəfli əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, hazırkı səfər sıx əlaqələrin qurulmasına xidmət edir, qarşılıqlı səfərlərin intensivləşməsi faydalı olar.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva iştirak edib.

# Sərhədçilər sədaqət andı içdilər





Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilmişdir.

Gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramı oxunmuşdur.

Mərasimdə çıxış edənlər ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərindən söz açmış, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırıldığını vurğulamışlar.

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinin də sərhədçilər tərəfindən xidmətdə qazanılan müsbət nailiyyətlər və yüksək əhval-ruhiyyə ilə qarşılandığı qeyd edilmiş, Vətənə, dövlətə sədaqət andı içərək sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına, xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminlik bildirilmiş, onlara müvəffəqiyyətlər arzulanmışdır.

Tədbirdə iştirak edən valideynlər hərbi hissələrdə yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmiş, övladlarını təbrik edərək onlara Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə etmişlər.

***"Azərbaycan"***

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ 100 1918 2018

# Azərbaycan Xalq Cümhuriyyəti

## Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi prokurorluq orqanlarında qeyd olunub



Mayın 21-də "Boulevard Hotel"də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransı giriş sözü ilə açan Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılan və xalqımızın dövlətçilik tarixində misilsiz rolu olan ilk demokratik, parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə məlumat verib. Baş prokuror ölkəmizin qədim və zəngin dövlətçilik ənənələrinin, çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdiyini bildirib. Zakir Qaralov Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırladığını xüsusi vurğulayıb.

Baş prokuror ölkəmizin müstəqilliyinin bərpasından sonra qazanılmış uğurlar, ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsində misilsiz xidmətləri və ulu öndərin etibarlı davamçısı Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar haqqında məlumat verib. Xüsusi vurğulanıb ki, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun cəsarəti sayəsində Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, xalqımızın firavanlığına və ölkənin davamlı inkişafına xidmət edən siyasi kursun həyata keçirilməsinə başlanılmaqla Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə siyasi-hüquqi qiymət verilib, həmin dövrün dövlət rəmzləri və himni bərpa olunub.

Baş prokuror qeyd edib ki, Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi və "Bu gün Cümhuriyyətin qurucuları Azərbaycanı görsələr, fəxr edərdilər. Biz də Cümhuriyyətin qurucuları ilə fəxr edirik" sözləri xalqımızın qədim və zəngin dövlətçilik tarixinə böyük ehtiramın göstəricisidir.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov "Müasir Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisidir" mövzusunda məruzə ilə çıxış edərək Cümhuriyyətin xalqımızın dövlətçilik tarixinin şanlı səhifələrindən olduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı sərəncamlarının önəmini qeyd edən akademik tariximizin, o cümlədən Cümhuriyyət dövrünün dərindən tədqiq olunmasında AMEA-nın Tarix İnstitutunun Azərbaycan Prokurorluğu orqanları ilə səmərəli əməkdaşlığını xüsusi vurğulayıb.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və əldə etdiyi mühüm uğurlar barədə konfrans iştirakçılarına ətraflı məlumat verən Y.Mahmudov deyib ki, 1918-1920-ci illər xalqımızın tarixinin ən parlaq səhifələrindən biridir. Cümhuriyyətin qurucuları olduqca gərgin ictimai-siyasi şəraitdə Azərbaycanın müstəqilliyini elan edib və 23 aylıq qısa müddətdə bütün sahələrdə mütərəqqi islahatlar həyata keçirərək Azərbaycanın sonrakı müstəqilliyi üçün dövlətçilik ənənəsi formalaşdırıblar.

Ümummilli lider Heydər Əliyevin Cümhuriyyət dövrünün dərindən araşdırılmasını daim diqqət mərkəzində saxladığını vurğulayan akademik diqqətə çatdırıb ki, bu istiqamətdə elmi tədqiqatlar fasiləsiz davam etdirilir, ilk mənbələr və arxiv sənədləri ölkəmizə gətirilir, sanballı elmi əsərlər hazırlanır və müxtəlif dillərə tərcümə edilir. Tarix İnstitutunun direktoru ulu öndər Heydər Əliyevin vəsiyyətinə əsasən nəşr edilən "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın Cümhuriyyət tarixinin bütün sahələrini əhatə edən ilk fundamental elmi əsər olduğunu vurğulayıb. O, dövlət başçısı İlham Əliyev tərəfindən də Cümhuriyyət dövrünün tədqiqinə daim xüsusi diqqət yetirməsinin bu sahədə işin daha geniş aparılmasına imkan yaratdığını bildirib.

Çıxışından sonra akademik Y.Mahmudov "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nı baş prokurora təqdim edib.

AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, Akademiyanın müxbir üzvü, Milli Məclisin deputatı, professor Musa Qasımlı "Müsəlman Şərqinin ilk demokratik respublikası" mövzusunda məruzəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə nəticələnən ictimai-siyasi prosesin milli özünüdərk və milli sürurun formalaşmasına təkan verən maarifçilik hərəkatı ilə başladığını deyib. Bu hərəkatda Cümhuriyyətin qurucularının misilsiz xidmətlərini xüsusi qeyd edən M.Qasımlı diqqətə çatdırıb ki, Avropa ölkələrindən fərqli olaraq, Azərbaycanda milli azadlıq hərəkatının ön sıralarında ziyalılar addımlayırdılar. Professor həmin dövrdə ziyalılarımızın azadlıq ideyalarına, demokratik dəyərlərə sadiqliyinin Azərbaycanın həmin dövrdə siyasi elitasının yüksək zəkasının və vətənpərvərliyinin göstəricisi olduğunu bildirib. Cümhuriyyətin ağır ictimai-siyasi şəraitdə elan edilməsinə baxmayaraq, mühüm uğurlar əldə etdiyini diqqətə çatdıran M.Qasımlı bu baxımdan 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dünyanın ən böyük dövlətləri tərəfindən tanınmasının, nizami ordu yaradılmasının, müsəlman Şərqində ilk dəfə qadınlara seçki hüququnun verilməsinin önəmini xüsusi vurğulayıb.

Professor Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil respublikamızın Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq sürətlə inkişaf etdiyini və dünya birliyində layiqli yer tutduğunu bildirib. Qeyd edib ki, məhz müstəqillik dövründə, xüsusən ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Cümhuriyyət dövrünün tədqiqi və təbliği istiqamətində mühüm addımlar atılıb və bu istiqamətdə iş davam etdirilir.

Baş prokurorun müavini Namiq Əsgərov "Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki müstəsna rolu" mövzusunda çıxış edərək bildirib ki, Şərqdə ilk demokratik Cümhuriyyətin qurulması sonrakı mərhələdə Azərbaycan dövlətçiliyinin qorunmasına, müstəqil respublika kimi inkişafına əsaslı hüquqi zəmin yaradıb. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının tarixinin də məhz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günündən sonra başladığını qeyd edən Namiq Əsgərov prokurorluq orqanlarının Azərbaycan Xalq Cümhuriyyətinin Məhkəmə Palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində mürəkkəb və ağır şəraitdə öz səlahiyyətləri daxilində böyük işlər gördüyünü diqqətə çatdırıb.

Konfransa yekun vuran baş prokuror Zakir Qaralov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ölkəmizin çoxəsrlik tarixinin ən şərəfli və parlaq səhifələrindən biri kimi böyük ruh yüksəkliyi ilə qeyd edilməklə, xalqımız müasir Azərbaycan dövlətinin müstəqilliyinin və suverenliyinin bütün atributlarına sahib olmasından və onun qorunub saxlanılmasının etibarlı əllərdə olmasından qürur hissi duyaraq işıqlı gələcəyinə tam inamla baxır.

Əminlik ifadə olunub ki, Azərbaycan Respublikasının Prokurorluq orqanları öz fəaliyyətini Prezident İlham Əliyevin müəyyənləşdirdiyi tələblər səviyyəsində qurmaqla, müstəqilliyimizin və suverenliyimizin dönməzliyinin və sarsılmazlığının təmin olunması, ictimai-siyasi sabitliyin və təhlükəsizliyin daha da möhkəmləndirilməsi, dövlətçiliyimizin qorunması istiqamətində davam etdirəcək.

Tədbir çərçivəsində AMEA-nın Tarix İnstitutu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tarixini özündə əks etdirən və nəfis şəkildə hazırlanmış "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" və digər kitablar nümayiş etdirilərək konfrans iştirakçılarına təqdim olunub.

Konfransın sonunda Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzinin hazırladığı "Əbədi ezamiyyət" sənədli filmi nümayiş etdirilib.

## Müsəlman Şərqində ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti

*Əvvəli 1-ci səh.*

Fevral inqilabından sonra açıq fəaliyyətə keçmiş Müsavat Partiyası Azərbaycanda siyasi qüvvələr arasında daha çox diqqət çəkirdi. Müsavat Partiyası federativ Rusiyanın tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış azərbaycanlı vətəndaşlara seçki hüququ verilməsi ideyasını irəli sürürdü. Gəncədə N.Yusifbəylinin başçılıq etdiyi Türk Ədəmi-Mərkəziyyət Partiyası, Əlimərdan bəy Topçubaşovun və Fətəli xan Xoyskinin başçılıq etdikləri Müstəqil Demokratik qrup, RSDFP-nin yerli təşkilatı - "Hümmət", Gəncədəki İttihadi-İslam Partiyası ilə Bakıdakı Rusiya Müsəlman Partiyasının qalıqlarından yaranmış İttihad Partiyası fəaliyyətini genişləndirir. N.Yusifbəylinin rəhbərlik etdiyi partiya Rusiya dövlətinin muxtar ərazilərin federasiyasına çevrilməsi ideyası ilə çıxış edirdi. İttihadi-İslam Partiyasının əməli fəaliyyətinin və nəzəri baxışlarının bünövrəsi islama əsaslanan ittihad - birlik idi. İslamı yalnız din deyil, siyasi, iqtisadi, hüquqi, mənəvi norma kimi qiymətləndirən ittihadçılar onu müsəlman həyatının özülü, əsas strukturu hesab edir, inkişaf yolunu isə məhz islam normalarını təkmilləşdirmək vasitəsilə həyata keçirməkdə görürdülər.

### Qafqaz müsəlmanlarının qurultayı və fəaliyyətdə olan partiyalar

Milli qüvvələrin Azərbaycanın gələcəyinə münasibəti aprelin 15-20-də (1917-ci il) Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında açıqlandı. Qurultay Qafqaz müsəlmanlarının Müvəqqəti hökumətə, habelə müharibəyə və Rusiyanın digər xalqlarına münasibəti məsələlərini müzakirə etdi. Qafqaz müsəlmanlarının qurultayı Rusiya müsəlmanlarının siyasi həyatında mühüm rol oynadı, siyasi hadisələrin həmin mərhələsində onların mənafelərini ifadə edərək Rusiya müsəlmanları üçün milli hərəkatın gücləndirilməsi yollarını, demokratik respublika prinsiplərinə söykənən dövlət quruluşu seçimini müəyyənləşdirdi. "Müsavat" və Türk Ədəmi-Mərkəziyyət partiyaları Rusiyanın demokratik federativ respublikaya çevrilməsi və Azərbaycana geniş ərazi-milli muxtariyyətinin verilməsi haqqında qərar layihəsi ilə çıxış edir. Lakin islamçılar (ittihadçılar), sosialistlər, bolşeviklər və menşeviklər Rusiyanın ərazi bütövlüyünün qorunmasına tərəfdar çıxdılar.

Həmin il mayın 1-11-də Ümumrusiya müsəlmanlarının Moskva qurultayında "Rusiya daxilində millətlərə ərazi-milli muxtariyyəti" şüarı demokratik qüvvələr tərəfindən müdafiə edilir. Qurultayın müzakirəyə çıxardığı ən mühüm məsələlərdən biri Rusiyanın gələcək dövlət idarə üsulu haqqında idi.

1917-ci ilin oktyabrında Bakıda Türk Ədəmi-Mərkəziyyət Partiyası ilə "Müsavat"ın birləşməsi prosesi başa çatdı. "Müsavat"ın proqramında demokratik, federativ Rusiyanın tərkibində Azərbaycana geniş ərazi-milli muxtariyyət tələbi təsbit edildi.

1917-ci ilin payızına doğru siyasi nüfuza malik milli demokratik qüvvələr dövlət tələbi ilə çıxış edərək, başqa qeyri-rus xalqları ilə bir sırada öz ümidlərini Müəssislər Məclisinə bağlamışdılar.

Bolşeviklərin həyata keçirdiyi 1917-ci ilin oktyabr çevrilişi xalqların milli müstəqilliyə olan ümidlərini daha da artırdı. Bu ümidlər xeyli dərəcədə bolşeviklərin hakimiyyətə gəldikləri ilk günlərdən başlayaraq elan etdikləri mühüm sənədlərlə bağlı idi. Bolşeviklərin qəbul etdikləri "Sülh haqqında dekret", "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" müraciətnaməsi ilk addım kimi keçmiş imperiyaya daxil olan xalqların azad surətdə ayrılıb öz müstəqil dövlətlərini yaratması üçün hüquqi təminat verirdi. Lakin az sonra məlum oldu ki, bu sənədlər reallıqdan uzaq olub daha çox təbliğat xarakteri daşıyır.

Bakı Sovetinin İcraiyyə Komitəsi S.Şaumyanın planına uyğun olaraq milli partiyaların cəmiyyətdə artan nüfuzunun qarşısını almaq, onların seçkilərdə iştirakını zəiflətmək məqsədilə seçkilərin keçirilməsi vaxtı haqqında axırıncı günə qədər heç bir məlumat vermədi. Bütün bu manevrlərə baxmayaraq, oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat" eserləri, menşevikləri, bolşevikləri və daşnakları geridə qoyaraq böyük üstünlüklə qələbə əldə etdi. Bu seçkilərdən sonra "Müsavat" partiyası Azərbaycanda hakimiyyət strukturlarının formalaşdırılması prosesinə ciddi təsir göstərməyə başladı.

1917-ci il noyabrın 11-də Tiflisdə Cənubi Qafqazın əsas siyasi qüvvələrini təmsil edən gürcü menşevikləri, "Müsavat", "Daşnaksütyun" və sağ eserlər Rusiyadakı bolşevik hökumətini tanımaqdan imtina etdilər. Yığıncaqda qərara alındı ki, Ümumrusiya Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün "Müstəqil Zaqafqaziya hökuməti" (Zaqafqaziya Komissarlığı) yaradılsın. Noyabrın 15-də Tiflisdə yeni hökumətin tərkibi elan edildi. Ona gürcü menşeviki E.P.Gegeçkori sədrlik edirdi. Hökumətin tərkibinə Azərbaycandan F.X.Xoyski, M.Y.Cəfərov, X.Məlikaslanov daxil idilər. Noyabrın 26-da Müəssislər Məclisinə seçkilər keçirildi. Bu seçkilərdə gürcü menşevikləri 11, müsavatçılar 10, daşnaklar 9, müsəlman sosialist bloku 2 yer, bolşeviklər, ittihadçılar və eserlər hərəyə 1 yer əldə etdilər. Seçkilərin gedişində aydın oldu ki, Azərbaycan əhalisinin böyük əksəriyyəti "Müsavat"ın irəli sürdüyü ərazi muxtariyyəti ideyasını müdafiə edir.

Zaqafqaziya Komissarlığının yaranması ilə Osmanlı və Rusiya qoşunları arasında gedən müharibədə anlaşılmaz bir vəziyyət əmələ gəldi. Çünki komissarlığın özünü müdafiə edə bilən ordusu yox idi. Digər tərəfdən, Zaqafqaziya Komissarlığı fraksiyalarının Osmanlı dövlətinə münasibəti də birmənalı deyildi: müsəlman fraksiyası osmanlılara qarşı vuruşmağın əleyhinə idi, gürcülər türklərlə sazişə girməyi məqbul sayırdılar, ermənilər isə bu barədə qəti qərara gələ bilmirdilər. Qafqazda hərbi əməliyyatların dayandırılmasında maraqlı olan və bu məqsədlə vasitəçilər axtaran Rusiya üçün əlverişli fürsət yaranmışdı: nəhayət, 1917-ci il dekabrın 5-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Osmanlı dövləti arasında barışıq imzalandı.

Dekabrın 19-da Zaqafqaziya Komissarlığı Qafqazdakı rus ordusunun tərxis olunması və bu əsasda milli qoşun hissələrinin təşkil edilməsi haqqında sərəncam imzaladı. İlk addım kimi üç piyada diviziyasından, atlı briqadadan və ərazi polklarından ibarət olan erməni ordusu yaradıldı. Erməni və gürcü milli ordu hissələrinin yaradılması bir qədər asan idi, çünki Qafqaz cəbhəsində rus ordusunun tərkibində kifayət qədər erməni və gürcü könüllü hərbi dəstələri fəaliyyət göstərirdi. Zaqafqaziya cəbhəsindən tərxis olunmuş əsgərlərin əksəriyyəti erməni idi. Onlar nəinki silah satır, hətta özləri də bu orduya yazılırdılar. Digər tərəfdən, çar ordusunda qulluq edən silahlı erməni partizanları müsəlmanlara qarşı təbliğat aparmaqla məşğul idilər. Erməni Milli Şurası kifayət qədər var-dövlətə malik olduğu üçün Qafqaz cəbhəsindən tərxis olunmuş rus əsgərlərindən çoxlu miqdarda silah ala bildi.

### Azərbaycanlılardan ibarət ordu hissələrinin yaradılması ciddi çətinliklərlə üzləşirdi

Ordu yaradılması ilə bağlı Müsəlman Milli Şurasının vəziyyəti ermənilər və gürcülərlə müqayisədə o qədər də yaxşı deyildi. Əvvəla, Qafqaz ordusunda azərbaycanlı əhali xidmət etmirdi. Köhnə rus ordusunda ayrıca müsəlman hissəsi yox idi. Rus ordusunun tərkibində müsəlman əsgərləri olmadığından milli ordunun yaradılması mümkün deyildi. Ən nəhayət, müsəlman əhali qorxurdu ki, rus dövləti onlardan türkdilli olduqları üçün şübhələnə bilər. Ona görə də Müsəlman Milli Şurası çox ehtiyatla hərəkət etməyə məcbur idi. Azərbaycanın ordu ilə bağlı problemlərini qabaqcadan görə bilən siyasi xadimlər Fevral inqilabından sonra Rusiyanın Müvəqqəti hökumətinə müraciət edərək milli ordunun yaradılmasına icazə istəmişdilər. Lakin bu müraciətə cavab verilməmişdi. Zaqafqaziya Komissarlığının qərarından sonra Müsəlman Milli Şurasının təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə müsəlman hərbçilərinin yığıncaqları keçirildi. Milli hissələrin yaradılması üçün radikal addımların atılması, məsələn, 1918-ci il yanvarın əvvəllərində Şamxor stansiyasında rus əsgərlərinin tərksilah edilməsi bir tərəfdən Bakı Soveti rəhbərliyi, digər tərəfdən isə Erməni Milli Şurası və gürcülərin müəyyən dairələri tərəfindən böyük hiddət və narazılıqla qarşılandı. Halbuki bunun üçün heç bir əsas yox idi: cəbhədən qayıdan rus əsgərlərinin tərksilah edilməsi haqqında qərarı Zaqafqaziya Komissarlığı çıxarmışdı. Məlum olduğu kimi, Zaqafqaziya Komissarlığının cəbhənin silahlarının Cənubi Qafqaz hüdudlarından kənara çıxarılmaması haqqında qərarı müsəlman, erməni və gürcü milli şuraları tərəfindən rəğbətlə qarşılanmışdı. Zaqafqaziya Komissarlığı Qafqaz cəbhəsinin Baş Qərargahından tələb etdi ki, ordunun bütün əmlakı və silahı yenicə yaradılmaqda olan milli şuralara təhvil verilsin. Zaqafqaziya Komissarlığının gürcü rəhbərliyi ordu hissələrinin Tiflis şəhərinə daxil olmasına icazə verməldi və onların Gəncə istiqamətindən Bakıya, oradan isə Şimali Qafqaz yolu ilə Rusiyaya keçməsini təklif etdi. Zaqafqaziya Komissarlığı nəzərdə tuturdu ki, Azərbaycandan keçən rus ordusunun bir qrupu silahlarını Şamxor və Dəllər stansiyasında könüllü surətdə Gəncədən gələn Müsəlman Milli Şurasının üzvlərinə təhvil verməlidir. Əvvəla, tərksilah öz qaydası ilə gedirdi. Tərksilah olunmuş əsgərlərə Bakıya getmək üçün şərait yaradıldı. Bu işə doktor Rəfibəyov və Səfikürdski rəhbərlik edirdilər. Lakin yanvarın 9-dan sonra eşelonlar tərksilahdan imtina etdi. Tiflisdən eşelonları müşayiət edən gürcü Abxazava və müsəlman korpusunun komandiri Maqalovla əsgərlər arasında toqquşma başlandı. İdarə olunmayan əsgərlər eşelonlardan artilleriya atəşi ilə yüzlərlə Azərbaycan kəndini yandırdılar və əhalisini məhv etdilər.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq Qafqaz cəbhəsindən çıxarılmış rus ordusunu əvəz edən erməni ordu birləşmələri cəzasızlıq şəraitindən istifadə edərək yerli müsəlman əhaliyə qarşı vəhşiliklər törətdilər. Nəticədə 1918-ci ilin martına qədər İrəvan quberniyasında azərbaycanlı əhalinin yaşadığı 199 kənd darmadağın edildi. Bu ərazidə yaşayan 135 min nəfər əhalinin bir qismi ermənilər tərəfindən öldürüldü, bir qismi isə Osmanlı ordusunun nəzarəti altında olan torpaqlara pənah apardı. İrəvan quberniyasında bir il ərzində ermənilər 100 mindən artıq türk-müsəlman əhalini məhv etdilər. Xüsusilə Azərbaycan muxtariyyətinə qarşı fəal mübarizə aparan S.Şaumyan Rusiya Xalq Komissarları tərəfindən Qafqaza fövqəladə komissar təyin edildikdən sonra bölgədə vəziyyət daha da ağırlaşdı. "Müsavat"ın günü-gündən artan nüfuzundan ehtiyat edən Şaumyanın başçılıq etdiyi bolşeviklər və daşnak qüvvələri martın axırlarında (29 mart - 2 aprel 1918-ci il) Bakıda yerli azərbaycanlı əhaliyə qarşı soyqırımı törətdilər; 12 mindən çox dinc əhali qətlə yetirildi, şəhər duması, milli şuralar (Erməni Milli Şurasından başqa) ləğv edildi. Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olundu, xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə yeksan edildi. Daşnak-bolşevik birləşmələri uzaqvuran toplarla Təzəpir məscidini zədələdi və dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırdılar. Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirdilər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Bu kəndlərə dəyən ziyan o dövrün qiymətləri ilə 339,5 milyon manat təşkil edirdi. Şamaxı şəhərinin əhalisinin böyük bir hissəsi - 8 min nəfəri öldürülmüş, azərbaycanlı əhaliyə dəyən ziyan isə bir milyard manatdan çox olmuşdu. Quba qəzasının 162 kəndi dağıdılmış, 16 mindən artıq türk-müsəlmanın həyatına son qoyulmuş, 32 kənd isə yer üzündən silinmişdi.

Azərbaycanın şərqində Sovet Rusiyasının yerli hökumətini qurmağa müvəffəq olan Şaumyan bütün Cənubi Qafqazı sovetləşdirmək adı altında sərsəm "böyük Ermənistan" ideyasını reallaşdırmağa başladı.

### Zaqafqaziya Seymi

Hələ 1918-ci ilin əvvəllərində regionda heç bir nüfuzu və gücü olmayan Zaqafqaziya Komissarlığı fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması və hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi. 1918-ci il fevralın 23-də üç əsas partiya ("Müsavat", menşevik, "Daşnaksütyun") fraksiyalarının nümayəndələrindən ibarət olan Zaqafqaziya Seymi öz işinə başladı. Seymdə Azərbaycanı 30 nəfər müsavatçı və onlara qoşulmuş bitərəf demokratlar, 7 nəfər Müsəlman sosialist bloku, 3 nəfər ittihadçı və 4 nəfər menşevik-hümmətçi təmsil edirdi. Zaqafqaziya Seymində Azərbaycanın siyasi partiyalarının 44 nümayəndəsi var idi. Onlardan hümmətçi-menşeviklər gürcü fraksiyasına daxil olmuş, qalanları isə müsəlman fraksiyasında birləşmişdilər. Müsəlman fraksiyası gürcü və erməni fraksiyalarından fərqli olaraq, çox dağınıq şəkildə fəaliyyət göstərirdi. Daşnak-bolşevik birləşmələrinin türk-müsəlman əhaliyə qarşı törətdikləri qırğınlar Zaqafqaziya Seymindəki Azərbaycan nümayəndələrini qəti addım atmağa məcbur edirdi. Seymdəki azərbaycanlıların Şaumyan başda olmaqla Bakıdakı quruma və müharibəyə münasibətdə mövqeyi erməni və gürcülərdən fərqlənirdi: başlıcası isə bu idi ki, osmanlıların Qafqazdakı siyasəti azərbaycanlıları tamamilə təmin edirdi. Aprelin 7-də Seymin müsəlman fraksiyalarının ("Hümmət"dən başqa) fövqəladə iclasında Azərbaycanda yaranmış dramatik vəziyyət ətraflı müzakirə olundu. Çıxış edənlər əsasən menşeviklərdən ibarət olan Tiflis hökumətinin Bakı bolşevikləri ilə əlbir olub, Bakı istiqamətinə göndərilən azsaylı qüvvəni lazımi silah və sursatla təmin etmədiyini, V.Leninlə gizli danışıqlar apardığını və müsəlman qırğınlarının artdığını narahatlıqla qeyd edərək qəti tədbirlər görmək vaxtının çatdığını göstərdilər. Qərara alındı ki, başqa fraksiyaların nümayəndələri ilə Zaqafqaziya Komissarlığının birgə iclası çağırılsın və müsəlman nazirlərin istefası bildirilsin. Qafqazın müstəqilliyinin elan edilməsi məsələsində müsəlman fraksiyasının qəti fikri Seymdə təmsil olunmuş bütün partiyaların nəzərinə çatdırılsın. Seymdəki çıxışında müsəlman sosialist blokunun lideri Səfikürdski dedi: "Əgər Şamxor hadisələrindən sonra Zaqafqaziya hökuməti Bakı üzərinə hücuma keçsəydi, mart qırğını baş verməzdi. Biz Zaqafqaziya hökumətindən xahiş edirik: bizim müdafiə olunmağımıza və Şaumyan başda olmaqla bolşevizmin ləğv edilməsinə kömək etsin. Əgər Zaqafqaziya hökuməti mövcuddursa, biz ondan tələb edirik ki, haqq işimizi müdafiə etsin. Əgər hökumət bu faciə ilə bağlı qəti tədbir görməzsə, biz özümüz onları məhv edəcəyik. Bizim tariximizdə çoxlu qanlar tökülüb, onların çoxu qanla yazılıb, biz bunu da tarixə qanla yazacağıq". Həmin iclasda M.Ə.Rəsulzadə nitqinə hökuməti ittiham edən çıxışla başladı: "Əgər Zaqafqaziya hökuməti və Zaqafqaziya Seymi bu andan etibarən müsəlman sosialist blokunun tələbini təmin etməsə, bizim burada sakit oturub bir yerdə işləməyimiz yolverilməzdir". Azərbaycan nümayəndələrinin ultimativ tələbləri Seymdə çaxnaşma saldı.

Məlum olduğu kimi, 1917-ci ilin axırlarında Almaniya və onun müttəfiqləri Rusiyanı döyüşən cəbhələrdən geri çəkilməyə və öz torpaqlarının bir hissəsindən imtina etməyə məcbur etdilər. 1918-ci il martın 3-də Brest-Litovskda Sovet Rusiyası ilə Almaniya arasında bağlanmış müqaviləyə görə, Qərbi Ukrayna və Qərbi Belorusiya torpaqları Almaniyaya, rusların Qafqaz cəbhəsində işğal etdikləri Qars, Ərdəhan, Batum isə Osmanlı dövlətinə keçirdi. Əslində Rusiya bu müqaviləni bağlamaqla vaxtilə S.Şaumyana Osmanlı ərazisində "Türkiyə Ermənistanı" yaratmaq haqqında vermiş olduğu 1918-ci il 11 yanvar tarixli 13 saylı dekretdən imtina etməyə məcbur oldu. Digər tərəfdən, həmin günlərdə Osmanlı nümayəndə heyətinin başçısı Seymdən Brest-Litovsk barışığının tanınmasını, həm də Türkiyə ilə müzakirələr aparmaq üçün Rusiyadan ayrılaraq özünü müstəqil dövlət elan etməsini tələb etdi. Aprelin 10-da Zaqafqaziya nümayəndə heyəti Brest müqaviləsinin şərtlərini qəbul etməyə və bu əsasda danışıqları davam etdirməyə hazır olduğunu bildirdi. Lakin Seymdə bu məsələ kəskin mübahisələrə səbəb oldu. Gürcü deputatları Osmanlı dövləti ilə müharibəni davam etdirmək üçün bütün qüvvələri səfərbərliyə almağı və kömək üçün Rusiyaya müraciət etməyi təkid edirdilər. Erməni fraksiyası müharibəni axıra qədər davam etdirmək və Osmanlı dövlətini məğlub etmək üçün hər cür vasitələrə əl atmaq təklifini irəli sürürdü. Erməni fraksiyası Seym qüvvələrinin geri çəkilməsinin bütün günahını Azərbaycan nümayəndələrində görürdü. Gürcü və erməni nümayəndələri Trabzon danışıqlarını yarımçıq kəsərək ölkəni müharibə vəziyyətində elan etdilər. Erməni-gürcü qüvvələri Osmanlı ordusunun qarşısını almağa qadir deyildi. Aprelin 15-də osmanlılar Batum şəhərini tutaraq Poti istiqamətində şimala doğru irəliləməyə başladılar. Belə bir şəraitdə Seymdəki erməni-gürcü çoxluğunun Qafqazın müstəqilliyini elan etmək və Brest-Litovsk sülhünü tam şəkildə qəbul etməkdən başqa çarəsi qalmadı. Aprelin 22-də müstəqil Zaqafqaziya Federativ Demokratik Respublikasının yaradıldığı elan edildi.

**(Ardı var)**

**Anar İSGƏNDƏROV,**
**tarix elmləri doktoru,**
**professor**

# Moskvada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş Universiada başa çatıb





Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) təşkilatçılığı ilə keçirilən, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş III Universiada başa çatıb.

AZƏRTAC xəbər verir ki, III Universiada Heydər Əliyev Kuboku uğrunda mini futbol turniri ilə yekunlaşıb. Moskvadakı Sokolniki İdman Kompleksində keçirilən turnirin qalibi Moskva Dövlət Humanitar İqtisadiyyat Universitetinin komandası olub. İkinci yeri Rusiya Gömrük Akademiyası və Moskva Dövlət Pedaqoji Universitetinin birləşmiş komandası, üçüncü yeri isə Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin komandası tutub.

Rusiya Azərbaycanlı Gənclər Birliyi İdarə Heyətinin üzvü Emin Hacıyev qaliblərə Heydər Əliyev Kuboku və medallar, RAGB-nin sədri Leyla Əliyevanın adından hədiyyələr təqdim edib.

III Universiada çərçivəsində, həmçinin kişilər və qadınlar arasında voleybol, marafon və stolüstü tennis yarışları da keçirilib. Universiadanın bütün qaliblərinə mükafatlar təqdim olunub.

# “Real tarix və “Böyük Ermənistan” uydurması” gürcü dilində də çap olundu

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudovun “Real tarix və “Böyük Ermənistan” uydurması” kitabı gürcü dilində də nəşr olunub.

Tarix İnstitutundan verilən məlumata görə, kitab Valeh Hacılar Elmi-Mədəni Araşdırmalar Vəqfi tərəfindən tərcümə və nəşr edilib.

Prezident İlham Əliyevin çağırışlarına cavab olaraq çap olunan kitabın elmi redaktoru institutun “Azərbaycanın qədim tarixi” şöbəsinin müdiri, dosent Allahverdi Əlimirzəyev, tərcüməçisi isə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin professoru Cabuki Kiriyadır.



Kitabda ilk mənbələr əsasında ermənilərin Kiçik Asiyaya Balkan yarımadasından köçüb gəldikləri, mənşəcə qədim frigiyalılarla qohum etnos olduqları və Asiya qitəsinin aborigen əhalisi olmadıqları göstərilir. Sübut edilir ki, müasir ermənilər (haylar) “Armeniya”, “armyane”, “erməni” adlarına Şərqi Anadoluya köçüb gəldikdən sonra sahib çıxmışlar. Tarixdə heç zaman “Böyük Ermənistan” adlanan dövlət qurumu olmayıb. “Böyük Ermənistan” anlayışı Azərbaycan, Türkiyə və Gürcüstan torpaqlarına sahib çıxmaq məqsədilə erməni saxtakarları tərəfindən sonradan uydurulub.

Əsərin birinci bölməsi “Ermənilər Kiçik Asiyaya Balkan yarımadasından köçüb gəlmişlər” adlanır və bu bölmə ermənilərin qədim Urartu irsinə sahib çıxmaq iddialarına qarşı kəskin cavabdır. Kitabda uydurma “Erməni yaylası” coğrafi anlayışına ayrıca bölmə həsr olunub. Bu bölmədə müəllif yazır ki, tarixi saxtalaşdıranlar XIX əsrin sonundan etibarən elmi dövriyyəyə daha bir uydurma termin - “Erməni yaylası” (“Armyanskoye naqorye”) coğrafi anlayışını da daxil ediblər. Əsərin son bölməsi isə tarixdə heç vaxt “Böyük Ermənistan” adlı dövlətin olmadığının isbatına həsr edilib.

Xatırladaq ki, “Real tarix və “Böyük Ermənistan” uydurması” kitabı Azərbaycan, ingilis, rus və ispan dillərində də nəşr olunub.

***“Azərbaycan”***

# Konstitusiya Məhkəməsi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə bir sıra tədbirlər təşkil edib

Mayın 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi silsilə tədbirlər təşkil edib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 21-də Konstitusiya Məhkəməsinin sədri başda olmaqla hakimlər və məhkəmənin kollektivi Arzu Əliyevanın baş prodüsserliyi ilə Bakı Media Mərkəzi tərəfindən çəkilən, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris sülh konfransına ezam edilən nümayəndə heyətinin keşməkeşli taleyindən bəhs edən “Əbədi ezamiyyət” filminə baxıblar.

Silsilə tədbirlər çərçivəsində Konstitusiya Məhkəməsində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə iclas keçirilib.

Tədbiri açan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev 100 il əvvəl - mayın 28-də müsəlman Şərqində yaradılmış ilk dünyəvi, demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətindən və Cümhuriyyət rəhbərlərinin xidmətlərindən bəhs edib.

Sədr Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının xalqımızın həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olduğunu, həmin tarixin hər il Respublika Günü kimi böyük təntənə ilə qeyd edildiyini bildirib. Azərbaycan tarixində ilk parlamentli respublika olan Cümhuriyyətin həm də bütün Şərqdə, o cümlədən müsəlman-türk dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət olduğu xüsusi vurğulanıb.

Fərhad Abdullayev Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşamasına baxmayaraq, xalqımızın müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadir olduğunu sübut etdiyini bildirib. Diqqətə çatdırılıb ki, mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar təmin edərək irqi, milli və dini bərabərsizliyi ortadan qaldırıb. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq qurmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər yaratmağa cəhd göstərib. Cümhuriyyətin səmərəli və məqsədyönlü fəaliyyəti sayəsində gənc respublikanın dünya birliyi tərəfindən beynəlxalq hüququn subyekti kimi tanınması 1920-ci ilin aprelində bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Sədr qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilməsə də, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. XX əsrin sonunda müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qalaraq Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi kimi onun üçrəngli bayrağını, gerbini, himnini qəbul edib.

Konstitusiya Məhkəməsinin sədri ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini, onun siyasətinin hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edərək 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsinin və bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsinin Cümhuriyyət irsinə, onun mütərəqqi dəyərlərinin təbliğinə göstərilən diqqətin bariz təzahürü olduğunu bildirib. Həmçinin ötən il mayın 16-da Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsi və bununla bağlı bir sıra tədbirlərin həyata keçirilməsi məqsədilə sərəncam imzaladığı diqqətə çatdırılıb. Vurğulanıb ki, hər il Respublika Günü münasibətilə dövlət başçısı Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni ziyarət edir.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dünyanın siyasi nizamının yenidən qurulduğu bir dövrdə - XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxıb. Ümummilli lider Heydər Əliyev Cümhuriyyətin dövlətçilik tariximizdə yerinə yüksək qiymət verərək bildirmişdi: “1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindən biridir”.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, əldə etdiyi uğurlara yüksək qiymət verən ulu öndər Heydər Əliyev Cümhuriyyətin süqutunun verdiyi dərslərdən yaxşı nəticə çıxarmağı tövsiyə edərək deyirdi: “1918-1920-ci illərdə Xalq Cümhuriyyətinin həyatında olmuş çəkişmələr, hakimiyyət mübarizəsi və şəxsi mənafeyinə görə ümummilli mənafeyə zərbələr vurulması acı həqiqətdir. Biz keçmişimizdən ibrət götürməliyik, keçmişimizin zərərli tərəflərinin yenidən cücərməsinə yol verməməliyik”.

1993-cü ilin keşməkeşli iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Xalq Cümhuriyyəti qurucularının tam müstəqil Azərbaycan ideyasını gerçəkləşdirdi, möhkəm dövlətçilik təsisatlarının siyasi, hüquqi, iqtisadi bünövrəsini qoydu, ölkəni parçalanmadan və xalqımızı müstəqilliyin itirilməsi təhlükəsindən xilas etdi. Möhkəm təməllər üzərində qurulan Azərbaycan Respublikası artıq dünyanın önəmli və müasir ölkələrindən birinə çevrilərək beynəlxalq aləmdə layiqli yerini tutub.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə gördüyü işlər xalqımızın tarixi-hüquqi yaddaşını özünə qaytardı, müstəqil dövlətçilik ənənələrinin inkişafına təkan verdi. Bu dövr Azərbaycan dövlətinin qurulması ilə yanaşı, ölkədə demokratiyanın inkişafı, insan haqlarının qorunması, siyasi-iqtisadi və sosial islahatların reallaşdırılması ilə əlamətdardır.

# DİN İdman Cəmiyyətinin komandası beynəlxalq turnirdə bürünc medal qazanıb



Belarusun paytaxtı Minskdə MDB dövlətlərinin güc qurumları arasında daşqaldırma növü üzrə turnir keçirilib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilk dəfə keçirilən yarışda DİN-in idmançı əməkdaşları da iştirak ediblər.

Nazirliyin İdman Cəmiyyətinin komandası yarışa beş iştirakçı ilə qatılıb. Turnirdə 70, 75, 80, 90 və 90 kiloqramdan yuxarı çəki dərəcələrində müvafiq olaraq, Anar Abdullayev, Elvin Dövlətov, Təbriz Məmmədov, Müşfiq Hüseynov və Ruslan Kübərov güclərini sınayıblar. Yığmamız bu turnirdə bürünc medala sahib olub.

Qeyd edək ki, komandamızı bu yarışa DİN İdman Cəmiyyətinin Sumqayıt Regional Qrupunun baş inspektoru, polis polkovnik-leytenantı Firudin Tağıyev hazırlayıb.

Komandamızın rəhbəri, cəmiyyətin idmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov ölkəmizdə idmanın bu növü üzrə daxili işlər orqanlarının əməkdaşları arasında müntəzəm yarışların keçirildiyini bildirib. O, əməkdaşların asudə vaxtlarda bu idman növü ilə məşğul olduqlarını, onların hazırlıq səviyyələrinin daha yüksək nəticələrin qazanılacağını deməyə əsas verdiyini, polis idmançılarımızın ildən-ilə təcrübələrini artırdığını diqqətə çatdırıb.

# “AzerGold” QSC AzMİU-nun müəllim heyəti üçün Çovdar filiz emalı sahəsinə tanıtım səfəri təşkil edib

Mayın 20-də “AzerGold” QSC Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) müəllim heyəti üçün Çovdar filiz emalı sahəsinə tanıtım səfəri təşkil edib. Müəllimləri Çovdar filiz emalı sahəsinin fəaliyyəti haqqında məlumatlandırmaq mədsədi daşıyan səfər filiz emalı sahəsində təhlükəsizlik qaydaları ilə tanışlıqdan başlayıb. Daha sonra müəllimlərə laboratoriyanın iş prinsipi, filiz emalı sahəsində çalışanlara yaradılan şərait, həmçinin qiymətli metalların hasilat və emal prosesi barədə ətraflı məlumat verilib. Qızıl çıxımı, müasir texnologiyaların tətbiqi və ətraf mühitin qorunması nöqteyi-nəzərindən MDB məkanında lider mövqe tutan Çovdar filiz emalı sahəsinin fəaliyyəti müəllim heyətində böyük maraq doğurub.



Qeyd edək ki, tanıtım səfəri 2017-ci ilin noyabr ayında Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində baş tutub. İki qurum arasında nəzərdə tutulan birgə fəaliyyət planına uyğun olaraq Çovdar filiz emalı sahəsində dörd tələbənin fevral ayında başlayan istehsalat təcrübəsi bu ay başa çatıb. Təcrübə zamanı tələbələr tikinti sahəsində təhlükəsizlik tədbirləri, sənədləşdirmə işləri, topa qələviləşdirmə sahəsinin tikintisi, tikintidə istifadə olunan ofis proqramları (MS Office, AutoCAD, ArchiCAD, Tekla), tikinti-quraşdırma, həmçinin müxtəlif materiallar üçün tələb olunan testlər və tikinti obyektinin istismara qəbulu haqqında biliklər əldə ediblər. Bundan əlavə, cari ilin aprel ayında “AzerGold” QSC-nin əməkdaşları tərəfindən AzMİU-da “Karyerada ilk addımlar” mövzusunda təşkil olunan seminarda tələbələrə CV-nin tərtib edilməsi və müsahibədə davranış qaydaları haqqında ətraflı məlumat verilib.

Bu il ərzində həmçinin “AzerGold” QSC-nin əməkdaşları tərəfindən AzMİU-nun bakalavr və magistr dərəcələrində təhsil alan tələbələri üçün müvafiq proqramlar üzrə master-klassların keçirilməsi, konkret nümunələr üzərində tədqiqatların aparılması, AzMİU-nun müəllim və tələbələri tərəfindən dağ-mədən və tikinti sahəsində istifadə olunan avadanlıqların, texnologiyaların tətbiqi və təhlili istiqamətində təkliflərin verilməsi nəzərdə tutulub.

***“Azərbaycan”***

# <u>*Hikmət HACIYEV:*</u> “Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür”

Müdafiə Nazirliyi tərəfindən məlumat verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan sahəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu həlak olub.

AZƏRTAC xəbər verir ki, həlak olmuş hərbi qulluqçunun ailəsinə dərin hüznlə başsağlığı verən Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib: “Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşmək əvəzinə Azərbaycanın işğal olunmuş ərazilərinə və Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan hissəsinə səfər edən Ermənistanın xarici işlər naziri vəziyyətin gərginləşməsini və təxribatların baş verməsini təşviq edir. Bu, bir daha onu göstərir ki, Ermənistanın münaqişənin “yalnız sülh yolu ilə həlli” barədə açıqlamaları işğalçılıq siyasətini gizlətməkdən başqa bir şey deyildir və cəfəngiyatdır”.

Qəti şəkildə bildiririk ki, yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

# “Məxməri inqilab” yeni xaosun əsasını qoydu

## *Ermənistanda etiraz aksiyaları artıq gündəlik hal alıb*

Ermənistanda son vəziyyətin təhlili bu ölkədə “məxməri inqilab”ın əslində yeni bir xaosun əsasını qoyduğunu göstərir. Ən azından o baxımdan ki, sözügedən ölkədə az qala hər gün müxtəlif səpkili etiraz aksiyalarının keçirilməsi artıq dəb halını alır. Ona görə ki, uzun illər təhdid və qorxu altında saxlanılan insanlar düşünürlər ki, artıq tələb etməklə heç olmasa hakimiyyətdən nəyisə qoparmağa nail ola bilərlər. Aksiya keçirməyə, mitinq etməyə isə səbəb kifayət qədər çoxdur. Ermənistanda məşhur “Nairit” zavodunun keçmiş və indiki işçilərinin baş nazirin iqamətgahı önündə etirazlara başlaması bu xüsusda daha çox diqqət çəkir.

Ermənistan prezidenti Armen Sarkisyan artıq bu zavodun illərdir işsiz və müavinətsiz qalan, hüquqları kobudcasına pozulan işçiləri ilə görüşüb. Lakin prezident hər hansı konkret vəd verməkdən çəkinib, çünki hansısa əməli addım atmağa heç cür imkan yoxdur. Bu səbəbdən aksiyalar davam edir.

“Nairit” zavodunun işçiləri ilə yanaşı, Aqarak mis-molibden kombinatının kollektivi də fasiləsiz tətilə başlayıb. Fəhlələr əməkhaqqının artırılması tələbi ilə işi dayandırıblar. Onlar Ararat qızılçıxarma fabrikinin işçilərinə qoşularaq bu addımı atıblar. Digər müəssisələrdə də tədricən çaxnaşmalar baş qaldırır. Çünki problemlər əhalinin bütün təbəqələrini əhatə edir, hamı bu və ya digər dərəcədə həyat şəraitindən narazıdır.

Ermənistanın Ararat bölgəsindəki sement zavodunda da işçilər etiraz aksiyası keçirirlər. Aksiyada etirazçılar maaşlarının ödənilməsini və onların artırılmasını tələb edirlər. Bununla yanaşı, aksiyaya qatılanlar iş adamı Hagik Sarukyanla görüş də tələb ediblər. Qeyd edək ki, bu zavodun sahibi olan Sarukyan hazırda ana müxalifətin lideri sayılır. Onun rəhbərlik etdiyi blok Ermənistan parlamentində Respublika Partiyasından sonra ən çox mandata sahibdir. Eyni zamanda Paşinyanın baş nazir vəzifəsinə gətirilməsində də Sarukyan əsas rollardan birini oynayıb.

Ermənistanda daha bir geniş kütləvi aksiya “Sasna Tsrer” silahlı qruplaşması üzvlərinin azad olunması ilə bağlıdır. Aksiyalara qrupun həbsdəki üzvlərinin qohumları da qoşulublar. Onlar həbsdə olan qrup üzvlərinin azadlığa çıxmayacağı təqdirdə etirazların coğrafiyasını genişləndirəcəklərini açıqlayıblar. Buna rəğmən paytaxt məhkəməsi qruplaşmanın həbsdə olan üzvlərini azadlığa buraxmaqdan imtina edib. Hakimin qərarından sonra qruplaşma tərəfdarları Yerevan küçələrində aktivləşiblər. Onlar əhalini Baş Prokurorluq və Kassasiya Məhkəməsinin binalarını mühasirəyə almağa səsləyiblər.

Maraqlıdır ki, Nikol Paşinyan hakimiyyətə gəlməzdən əvvəl “Sasna Tsrer”in üzvlərinin azadlığa çıxacağını bildirsə də, indi fikrindən daşınıb. Bundan başqa, daha bir aksiyada Yerevan meri Taron Marqaryanın istefası tələb edilir. Qeyd edək ki, mer sabiq baş nazir Andranik Marqaryanın oğlu və Nikol Paşinyanın baş nazir seçilməsindən sonra müxalifətə keçən Respublika Partiyasının üzvüdür. Proseslərin bu şəkildə inkişafı isə Ermənistanda vəziyyəti xaotik hala gətirir.

Digər tərəfdən, hesab edilir ki, Ermənistanda ağır sosial-iqtisadi vəziyyətin yaxşılaşması istiqamətində hansısa real addımlar atılmaması xaosun miqyasını genişləndirəcək. Rusiyalı politoloq Andrey Yepifantsev də bunu qaçılmaz hal sayır: “Çox zaman keçməyəcək və Paşinyan xalqın kumirindən uğursuz liderə çevriləcək. Prinsipcə, Ermənistan Qarabağdan və “erməni soyqırımı”ndan imtina etmədən, blokadada və nəqliyyat marşrutlarından kənarda qalmaqla iqtisadiyyatı qaldırıb, vətəndaşların yoxsulluq səviyyəsini necə aşağı sala bilər? Hələlik ermənilər hesab edirlər ki, siyasi prinsiplərdən imtina etməyəcəklər. O zaman belə çıxır ki, hakimiyyətə ya sehrbaz gəlməli və nəzəri olaraq iylənən situasiyadan bal qoxuyan konfet düzəltməyi bacarmalı, ya da onların xərclərini başqaları ödəməlidir. Bunlar isə ya Rusiya, Avrasiya İttifaqı, ya Qərb və ya diaspor olmalıdır. Yəni kim edirsə-etsin, amma qürurla öz prinsiplərinə sadiq qalsınlar.

Bugünkü ana qədər belə cəhdlər Ermənistan üçün uğurlu olmayıb, amma çox aktiv şəkildə davam edir. Paşinyanın iqtisadi proqramı zəif və populistdir. O, mikroskopik erməni bazarının demonopolizasiyasından, kölgə iqtisadiyyatıyla mübarizədən və sairədən danışır. Ermənistanın saxlanılmasına mənbə kimi isə o, yenə də strateji tərəfdaşlarını görür. Aktiv şəkildə varlı diasporu ölkəyə cəlb etmək Qərbə doğru getmək deməkdir. Bu isə Rusiyadan gələn mənbələrin qapadılması və həm də Ermənistanın sonu deməkdir. Paşinyan iqtisadiyyata yeni heç nə gətirmir. O, Ermənistanın siyasi tələblərindən də imtina etmir, nəticədə ölkəni iqtisadi kollapsa aparır. Digər tərəfdən, Paşinyan başqa ölkələrdən pul gətirib vətəndaşları yemləyəcəyini deyir, lakin hələ də bəlli deyil ki, onlar niyə Ermənistana bu pulları verməlidirlər. Paşinyanın proqramı Ermənistanın blokadadan və təcriddən çıxarmayan, indiki siyasi mövqeyini qoruyub saxlayan digər proqramlar kimi uğursuzluğa məhkumdur. Məncə, bir il ərzində biz Paşinyanın iqtisadiyyat və rifah məsələsində heç nə edə bilməyəcəyini görəcəyik. Demək ki, ictimaiyyətdə neqativ əhvali-ruhiyyə güclənəcək və yeni kumir axtarılacaq”.

Əhali isə indi hesab edir ki, baş vermiş dəyişikliklərdə “həlledici” rol oynadığından yeni baş nazir ilk növbədə onların problemlərini həll etməlidir. İrəli sürülən tələblər haqlı tələblərdir, lakin bunların yerinə yetirilməsində dövlət acizdir. Ona görə ki, iqtisadi resurslardan məhrumdur. Bu səbəbdən ölkədə başlanmış xaos vəziyyəti getdikcə dərinləşir.

Ermənistan parlamentinin dövlət-hüquq məsələləri və insan hüquqları komissiyasının respublikaçı sədri deputat Qevork Kostanyan bu durumda diqqəti ona yönəldir ki, Nikol Paşinyan “super baş nazir” deyil: “Hökumətin başında Sarkisyanın və ya Paşinyanın durmasından asılı olmayaraq, yaxşılığa doğru nəyinsə dəyişməsini gözləməyə dəyməz”.

Erməni ekspert Xosrov Arutyunyan vəziyyəti real qiymətləndirərək yazır: “Ermənistan qarşısında bütün sahələrdə ardıcıl islahatların aparılması kəskin şəkildə durur. Ermənistan bu gün ərazisinin 83 faizi işləməyən bir dövlətdir. Biz dərin blokada şəraitində yaşayırıq. Biz öz iqtisadi ağciyərimizin 17 faizi ilə nəfəs alırıq. Ermənistanın inkişaf sürəti hələ uzun müddət qonşularının siyasi iradəsindən asılı olacaq. Bu, reallıqdır”.

Bu cür xaosa sürüklənmiş Ermənistanda indiki durumda vəziyyətin daha da pisləşməsi qaçılmaz sayılır.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Azərbaycan nümayəndə heyəti San-Fransiskoda Kaliforniyanın siyasi xadimləri ilə görüşlər keçirib



Kaliforniyada səfərdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti San-Fransisko Şəhər Şurasının üzvü Norman Yi və Kaliforniya ştat senatoru Ceri Hill ilə görüşlər keçirib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti həmçinin bir sıra kilsələrdə və sinaqoqda olub. Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev görüşlərdə iştirak edib.

Görüşlər zamanı Azərbaycanın tarixi tolerantlıq və zəngin multikulturalizm ənənələri haqqında geniş məlumat verilib. Azərbaycanda islam dini ilə yanaşı, digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqları diqqətə çatdırılıb, həmçinin bu ənənələrin artıq ölkəmizdə dövlət siyasəti səviyyəsinə yüksəldildiyi vurğulanıb.

# ABŞ Konqresində və “Heritage” fondunda Transxəzər regionu ilə bağlı müzakirələr aparılıb

Vaşinqtonda 3-cü Transxəzər Forumu çərçivəsində ABŞ Konqresində brifinq və nüfuzlu “Heritage” fondunda analitik müzakirələr təşkil edilib.



ABŞ Konqresində “Transxəzər regionunun geostrateji əhəmiyyəti və perspektivlər” mövzusunda keçirilən panel müzakirələrin açılışında çıxış edən Amerika Xarici Siyasət Şurası nəzdində Mərkəzi Asiya və Qafqaz İnstitutunun sədri və bu region üzrə ABŞ-ın ən tanınmış ekspertlərindən biri olan professor Fred Star region ölkələrinin əməkdaşlıq vasitəsilə birgə işlər görməsini təqdir edib və bu xüsusda həmin ölkələr tərəfindən əldə edilmiş nailiyyətlərin ABŞ ictimaiyyətinə çatdırılması baxımından forum çərçivəsində növbəti dəfə Konqresdə belə müzakirələrin aparılmasının əlamətdar hadisə olduğunu qeyd edib. O, dünya okeanına birbaşa çıxışı olmayan əksər Transxəzər dəhlizi dövlətlərinin iqtisadi inkişafının davamlılığının təmin olunması üçün region ölkələrinin bir-biri ilə sıx əməkdaşlığının vacibliyinə toxunub, bunun üçün regional əlaqələr və ticarətin artırılmasının xüsusi önəmini diqqətə çatdırıb.

Daha sonra professor Starın moderatorluğu ilə keçən panel müzakirələrdə Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Türkiyənin iqtisadiyyat nazirinin müavini Fatih Metin və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Qenadi Arveladze çıxış edərək regionun strateji əhəmiyyətini və rəqabətliliyini vurğulayıb, Azərbaycan və digər ölkələr tərəfindən həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, qeyd edilən dəhliz boyu ticarət və tranzit imkanları, onun üstünlükləri barədə tədbir iştirakçılarına məlumat veriblər. E.Vəlizadə çıxışında həmçinin Azərbaycanda ticarət, nəqliyyat və tranzit sahəsində dövlət siyasəti, mövcud və tikilməkdə olan nəqliyyat və neft-qaz layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və “Cənub qaz dəhlizi” barədə danışıb. O, həmçinin Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması sahəsində son dövrlər həyata keçirilən kompleks islahatlar və bu istiqamətdə ABŞ şirkətləri üçün yaranmış yeni əməkdaşlıq imkanları haqqında danışıb.

Transxəzər Forumunun növbəti tədbiri ABŞ-ın hazırda ən nüfuzlu analitik mərkəzlərindən sayılan “Heritage” fondunda baş tutub. Fondun xarici siyasət üzrə direktoru Lük Kofinin aparıcılığı ilə “ABŞ-ın Transxəzər regionu ilə əməkdaşlığında yeni çağırışlar və perspektivlər” mövzusunda keçirilən “dəyirmi masa” müzakirəsində tanınmış amerikalı diplomat, Xəzər Siyasət Mərkəzinin İdarə Heyətinin üzvü səfir Riçard Hoqland çıxış edərək, Birləşmiş Ştatların bölgədə əməkdaşlığı inkişaf etdirməkdə daha güclü rol oynaması üçün vaxtın yetişdiyini və bu xüsusda ABŞ-ın Transxəzər regionu ilə əməkdaşlığının gücləndirilməsi üçün növbəti addımları barədə tövsiyələrini bölüşüb. O, Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin müstəqillik əldə etdikdən 25 il sonra öz infrastrukturlarını, iqtisadiyyatlarını və xalqlararası əlaqələrini daha da gücləndirmək üçün öz aralarındakı əməkdaşlığı inkişaf etdirməyə və bununla da müstəqilliklərini daha da gücləndirməyə çalışdıqlarını vurğulayıb. R.Hoqland ABŞ-ın region ölkələri ilə əməkdaşlığının və ticarətin gücləndirilməsi üçün Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, “Cənub qaz dəhlizi”, Lapis-Lazuli nəqliyyat marşrutu və “C5+1” kimi mühüm birgə layihələrin həyata keçirildiyini və onların Transxəzər dəhlizinin inkişafında önəmli rol oynadıqlarını diqqətə çatdırıb.

Çıxış edən səfir Elin Süleymanov Azərbaycan tərəfinin təşəbbüsü və aparıcı rolu ilə 2016-cı ildən bəri Vaşinqtonda keçirilən Transxəzər Forumunun ABŞ və region ölkələri arasında yeni əməkdaşlıq imkanlarının təşviqi baxımından vacib platformaya çevrildiyini qeyd edib. O, Çindən Avropaya daşınan yüklərin ölkəmizin yerləşdiyi regiondan keçən nəqliyyat dəhlizlərinə cəlb olunması istiqamətində görülən işlər barədə məlumat verib və bu xüsusda Azərbaycan, Gürcüstan və Türkiyə arasında mövcud strateji əməkdaşlığı vurğulayıb. Diplomat bunun regionun digər ölkələri üçün örnək olduğunu və könüllü surətdə, heç kimin təsiri olmadan baş verdiyini, hər üç ölkənin və xalqın maraqlarına, rifahına xidmət etdiyini bildirib.

Müzakirələr zamanı həmçinin Dövlət Neft Şirkətinin vitse-prezidenti Elşad Nəsirov ölkəmizin enerji siyasətindən və Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən qlobal əhəmiyyətli layihələrdən, o cümlədən “Cənub qaz dəhlizi”ndən danışıb və onun regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından önəmini vurğulayıb. O, Avropanın enerji diversifikasiyası və təhlükəsizliyində xüsusi rol oynayacaq “Cənub qaz dəhlizi”nin Transanadolu qaz boru kəməri hissəsinin gələn ay açılış mərasiminin keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, forum Azərbaycan, Əfqanıstan, Gürcüstan, Qazaxıstan, Türkiyə, Özbəkistan və Türkmənistanın ABŞ-dakı səfirliklərinin dəstəyi ilə keçirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, “Boeing”, “Chevron”, “Schneider Group”, “Caspian Foundation”, ABŞ-Azərbaycan Ticarət Palatası, Amerika Xarici Siyasət Şurası nəzdində Mərkəzi Asiya və Qafqaz İnstitutu, ABŞ-Gürcüstan Biznes Şurası, Amerikanın Azərbaycanda Ticarət Palatası, Amerikanın Gürcüstanda Ticarət Palatası, Amerikanın Qazaxıstanda Ticarət Palatası, ABŞ-Qazaxıstan Biznes Assosiasiyası, ABŞ-Türkiyə Şurası forumun tərəfdaşlarıdır. “Boeing”, “Chevron”, “Schneider Group” və “Caspian Foundation” şirkətləri builki forumun sponsorlarıdır.

Forumda Azərbaycanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, SOCAR, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”, “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC, “Azərkosmos”, “Azərbaycan Hava Yolları” QSC, “Silk Way” və “Azərsun Holdinq”in nümayəndələri təmsil edir. Eyni zamanda, foruma Azərbaycanda Amerika Ticarət Palatası (“AmCham”) tərəfindən Vaşinqtona səfəri həyata keçirilmiş missiyanın üzvləri də qatılıb.

Transxəzər Forumu çərçivəsində baxılan mövzular sosial mediada da böyük marağa səbəb olub və geniş şəkildə işıqlandırılıb.

# Qeyri-neft sektorunun inkişafı sürətlənir, əhalinin gəlirləri artır, inflyasiya minimuma enir

Əvvəli 1-ci səh.

Mədənçıxarma sektorunda neft hasilatı 1,4 faiz artmış, əmtəəlik qaz hasilatı 10,8 faiz aşağı düşmüşdür. Emal sektorunda bir çox mühüm məhsulların istehsalı üzrə kifayət qədər yüksək artım müşahidə olunmuşdur. Belə ki, yanvar-aprel aylarında bu sektor üzrə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 8,8, tütün məmulatlarının istehsalı 2,7, hazır metal məmulatları və poliqrafiya məhsullarının hər biri üzrə 2,2, mebel istehsalı 2 dəfə, eləcə də elektrik avadanlıqları istehsalı 98,5, dəri və dəri məmulatlarının istehsalı 91,4, toxuculuq sənayesi məhsulları istehsalı 62,6, tikinti materialları istehsalı 37,8, metallurgiya sənayesi məhsulları istehsalı 14,2, geyim istehsalı 12, kimya sənayesi məhsulları istehsalı 1,6, ağac emalı və ağacdan məmulatlar istehsalı 1,1 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi, təchizatı sektorunda qeydə alınmışdır.

DSK-nın hesabatında bildirilir ki, 4 ay ərzində ölkə üzrə əsas kapitala 4 milyard 160,1 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 73,6 faizi məhsul istehsalı və 20,7 faizi xidmət obyektlərinin, 5,7 faizi ümumi sahəsi 518,9 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf edilmişdir. Əsas kapitala yönəldilən vəsaitlərin 2 milyard 181,4 milyon manatı daxili, 1 milyard 978,7 milyon manatı xarici sərmayələr olmuşdur. Xarici sərmayələrin 81 faizi Böyük Britaniya, İsveçrə, Türkiyə, Malayziya, Yaponiya, ABŞ, Çexiya, Rusiya və İran kimi ölkələrin investorlarının payına düşmüşdür. Yeri gəlmişkən qeyd edək ki, hesabat dövründə qeyri-neft sektorunun inkişafına 2 milyard 281,6 milyon manat vəsait sərf edilmişdir. Bu vəsaitin 460 milyon manatından qeyri-neft sənayesi sektorunda istifadə olunmuşdur.

Bütün bu vəsaitlər hesabına ilin əvvəlindən ötən 4 ay ərzində ölkə ərazisində çoxsaylı və müxtəlif təyinatlı obyektlər istifadəyə verilmişdir. Onların sırasında paytaxtda “Yasamal-1”, “Qobu” və 120 saylı elektrik yarımstansiyaları, Bakı Statistika İdarəsinin inzibatı binası, “Bona Dea” beynəlxalq hospital, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində “Xəzər” avtomobil zavodu, Naxçıvan MR-də 442 şagirdlik 2 ümumtəhsil məktəb binası və ambulator-poliklinika binası və s. kimi mühüm obyektlər var.

İqtisadi inkişaf nəqliyyat sektorunun fəaliyyətində də özünü göstərir. Belə ki, hesabat dövründə ölkə üzrə 67,9 milyon ton yük və 619,9 milyon sərnişin daşınmışdır. Yük daşınması 0,5, sərnişin daşınması 1,6 faiz artmışdır. İnformasiya və rabitə sektoruna aid göstəricilərdə də artım qeydə alınmışdır. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə bu sahə üzrə göstərilmiş xidmətlərin həcmində 7,8 faiz artım olmuşdur. Əldə edilmiş gəlirlərin 80,9 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

Bütün bunlar əhalinin gəlirlərinin artmasına da təsirsiz ötüşməmişdir. DSK-nın məlumatına görə, yanvar-mart aylarında ölkə üzrə orta aylıq nominal əməkhaqqı 532,4 manata çatmışdır ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz çoxdur. Əhalinin ümumilikdə gəlirləri isə 4 ay ərzində 9,2 faiz artaraq 16,2 milyard manatdan çox olmuşdur.

Bu sahədə artım ölkənin pərakəndə ticarətində də özünü göstərmişdir. DSK məlumat verir ki, yanvar-aprel aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 10,8 milyard manatlıqdan çox məhsul satılmış, 2,5 milyard manatlıqdan artıq pullu xidmətlər göstərilmişdir. 2017-ci ilin analoji dövrünə nisbətən əmtəə dövriyyəsi 2,5, əhaliyə göstərilən xidmətlərdən əldə olunan gəlir 1,9 faiz artmışdır. Yaxşı haldır ki, bu artımlar yalnız qiymətlərin bahalaşması hesabına olmamışdır. Başqa sözlə desək, ölkədə inflyasiyanın səviyyəsi xeyli aşağı düşmüşdür. DSK-nın məlumatına görə, 4 ay ərzində ölkədə istehlak məhsullarının və xidmətlərin qiymətləri ümumilikdə 3,5, o cümlədən ərzaq 3,7, qeyri-ərzaq məhsulları 4,1, ödənişli xidmətlərin tarifləri cəmi 2,8 faiz bahalaşmışdır.

Bir neçə fakt da xarici ticarət haqqında. Hesabatda bildirilir ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla cari ilin yanvar-mart aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 6 milyard 894,6 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 68,2 faizini ixrac, 31,8 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 2,5 milyard dollarlıqdan çox müsbət saldo deməkdir. Ötən ilin eyni dövrü ilə müqayisədə ilk rübdə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 34,9, real ifadədə 6,3, o cümlədən ixrac 5,3, idxal 8,7 faiz artmışdır. Qeyri-neft məhsullarının ixracında faktiki qiymətlərlə 34,8 (real ifadədə 29,6) faiz artım qeydə alınmışdır. Bu isə 356,4 milyon dollarlıq qeyri-neft məhsullarının ixracı deməkdir.

***Raqif MƏMMƏDOV, “Azərbaycan”***

# Qürur doğuran yüksəliş

Əvvəli 1-ci səh.

Naxçıvan şəhərinin özündə və rayon mərkəzlərində, demək olar ki, bütün kəndlərdə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müasir avadanlıqla təchiz edilmiş idman kompleksləri, təhsil və səhiyyə müəssisələri, mədəniyyət və turizm obyektləri inşa edilib. Xüsusən muxtar respublikanın bütün kəndlərində yeni məktəblər, xəstəxanalar, idman qurğuları və inzibati binalar inşa olunub. Hər yerdə istirahət bağları və parklar salınıb. Naxçıvanda irimiqyaslı digər infrastruktur layihələri də yerinə yetirilib. Belə ki, Naxçıvan Muxtar Respublikasında artıq on ildən çoxdur ki, qazlaşdırma 100 faiz təmin edilib. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra muxtar respublika öz enerji tələbatının 100 faizini bərpa olunan enerji hesabına təmin edəcək.

Naxçıvanın yol infrastrukturu da son illər həm inkişaf edib, həm də genişlənib. Naxçıvandan Sədərək, Şahbuz və Culfa istiqamətlərinə gedən, eləcə də Naxçıvan şəhərinin özündə, rayon mərkəzləri və kəndlərdə yollar müasir səviyyədə təmir olunaraq yenidən qurulub. Bu gün də bölgədə avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Hazırda respublikanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı mühüm layihələr uğurla icra olunur.

Son səfəri zamanı Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında ictimaiyyətin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev muxtar respublikada görülən işlərin çox yüksək qiymətə layiq olduğunu bildirib: *“Bu yaxınlarda ulu öndərin 95 illiyinə həsr edilmiş təntənəli mərasimdə çıxış edərkən o cümlədən onun Naxçıvan dövrü haqqında söz açmışdım. Bildirmişdim ki, Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır. Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin”.*

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksinin, Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin binasının açılışında iştirak edib. Bütün bunlar bir daha Naxçıvanda infrasturktur layihələrin sürətlə həyata keçirilməsindən xəbər verir.

## Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu böyük qüvvəyə malikdir

Səfər zamanı dövlət başçısı Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində və Əlahiddə Ümumqoşun Ordusunun “N” saylı hərbi hissəsində yaradılan şəraitlə də tanış oldu. Ümumiyyətlə, Naxçıvanda diqqəti çəkən məsələlərdən biri də Əlahiddə Ümumqoşun Ordusunun son illərdə maddi-texniki bazasının əhəmiyyətli dərəcədə yüksəldilməsidir.

Qeyd edək ki, Naxçıvanın etibarlı müdafiəsinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvanda müdafiə və hərbi quruculuq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin düşmən əlinə keçməsinin qarşısını aldı, sabitliyin və əmin-amanlığın möhkəm əsası yarandı. 1993-cü ildən sonra Heydər Əliyevin başladığı yeni ordu quruculuğu muxtar respublikanın müdafiəsini daha da gücləndirdi. Bu gün isə ulu öndərin Naxçıvana diqqət və qayğısı Prezident İlham Əliyev tərəfindən əzmlə davam etdirilir. Bu diqqət və qayğı digər sahələrin inkişafı ilə yanaşı, Naxçıvandakı hərbi birləşmələrin döyüş qabiliyyətinin daha da artırılmasında özünü göstərir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər: *“Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın, demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir”.*

Azərbaycanın digər regionlarında olduğu kimi, Naxçıvanda da həyatın bütün sahələrindəki irəliləyişlər davamlıdır. Prezident İlham Əliyevin Naxçıvana bu günlərdə etdiyi səfər bunu bir daha təsdiq etdi. Dövlət başçısının açılışında iştirak etdiyi infrastuktur obyektləri göstərdi ki, qədim Azərbaycan yurdu olan Naxçıvan Muxtar Respublikası blokada vəziyyətində olmasına baxmayaraq sürətli inkişaf və yüksəliş yolundadır.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# Beynəlxalq aləm

HADİSƏLƏR, FAKTLAR

## Maduro yenidən Venesuelanın Prezidenti seçildi



Nikolas Maduro yenidən Venesuelanın Prezidenti seçilmişdir. Onu seçicilərin 68 faizi dəstəkləmişdir. Bu barədə Milli Seçki Şurasının başçısı Tibisay Lusenaya istinadən “RİA Novosti” agentliyi xəbər verir. Maduro 2025-ci ilədək dövlət başçısı vəzifəsində qalacaq. Onun rəqibi Enri Falkon seçkilərin nəticələrini tanımamış və ölkədən gedəcəyini bildirmişdir. O, 1,8 milyon səs toplamışdır. Falkonun dediyinə görə, səsvermə zamanı baş vermiş pozuntular və ona təzyiqlər barədə ümumilikdə 142 min ərizə verilmişdir.

ABŞ Dövlət Departamenti və Latın Amerikasının bir sıra ölkələri Venesuelada keçirilmiş seçkiləri tanımamışdır.

Xatırladaq ki, 2013-cü il aprelin 14-də keçirilmiş əvvəlki seçkilərdə Maduro təxminən bir faiz səs üstünlüyü ilə qələbə qazanmışdı. Hazırda ölkədə dərinləşən iqtisadi böhran fonunda onun nüfuzu aşağı düşür.

## İraqda koalisiya hökuməti yaradılacaq



İraqda keçirilmiş parlament seçkilərinin yekunlarına görə təşkil ediləcək yeni hökumətə ölkənin dörd siyasi qüvvəsi daxil olacaq. Bu barədə TASS agentliyi xəbər verir.

Hakim koalisiyaya Muqtəda Sədrin rəhbərlik etdiyi “Sairun” koalisiyası başçılıq edəcək. Hökumətdə həmçinin “Fəth” hərəkatı, Baş nazir Heydər İbadinin “Nəsr” partiyası və Əmmar Həkimin liderlik etdiyi “Hikmət” milli koalisiyası təmsil olunacaq.

“Hikmət” koalisiyasının nümayəndəsi Məhəmməd Cəmil Meyyahinin dediyinə görə, “Sairun”, “Fəth”, “Hikmət” və “Nəsr” 72 saat ərzində koalisiya hökumətinin yaradıldığını rəsmən bəyan edəcək.

Mərkəzi Seçki Komissiyasının məlumatına görə, “Sairun” koalisiyası İraqın 329 yerlik parlamentində 54 mandata yiyələnmişdir.

## İran Aİ-yə ultimatum verdi



İran nüvə proqramı üzrə sazişə o halda riayət edəcək ki, Avropa İttifaqı (Aİ) ABŞ sanksiyaları üzündən Tehrana dəyəcək zərəri kompensasiya etsin. Bu barədə “The Wall Street Journal” qəzeti xəbər verir.

“İndi top Avropanın meydanındadır” deyə İran Atom Enerjisi Agentliyinin rəhbəri Əliəkbər Salehi izah etmişdir. O bildirmişdir ki, Tehran sazişdə nəzərdə tutulmuş razılaşmalara yalnız bu şərtlə riayət etməyə hazırdır. Fransanın iqtisadiyyat naziri Brüno Le Mer bundan əvvəl bildirmişdi ki, Brüssel Vaşinqtonun sanksiyalarından dəyən zərərin kompensasiyasını öz üzərinə götürə bilər.

Xatırladaq ki, mayın 8-də ABŞ Prezidenti Donald Tramp ölkənin İranın nüvə proqramı üzrə sazişdən çıxdığını bildirmişdir.

Öz növbəsində İran Prezidenti Həsən Ruhani demişdir ki, Tehran sazişdən imtina etməyəcək və öz öhdəliklərinin icrasını davam edəcək. Aİ ölkələri də sazişdən çıxmayacaqlarını bildirmişlər.

## Əfqanıstanda inşa edilən qaz kəmərinə hücum



Əfqanıstanın cənubunda, Qəndəhar əyalətində silahlı şəxslərin hücumu nəticəsində istehkamçılar dəstəsinin azı 5 əməkdaşı həlak olmuş, bir nəfər yaralanmışdır. Bu barədə “Tolo News” telekanalı xəbər verir.

Əyalət polisinin rəisi, general Abdul Raziqin dediyinə görə, hadisə Maivand dairəsində baş vermişdir. İstehkamçılar ərazini əldəqayırma partlayıcı qurğulardan təmizləyərkən onlara atəş açılmışdır. Raziq bildirmişdir ki, istehkamçılar Tacikistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəmərinin keçəcəyi sahədə işləyirdilər.

Generalın mülahizəsinə görə, hücum edənlər “Taliban” hərəkatının silahlılarıdır.

## Türkiyədə 21 terrorçu zərərsizləşdirildi



Türkiyədə son bir həftə ərzində 21 terrorçu zərərsizləşdirilmişdir. Terrorçu təşkilatlara qarşı ümumilikdə 1388 əməliyyat keçirilmişdir. Bu barədə Türkiyə Daxili İşlər Nazirliyinə istinadən “Anadolu” agentliyi xəbər verir.

Qeyd olunur ki, 11 terrorçu məhv edilmiş, 10-u silahı yerə qoyaraq təslim olmuşdur. Asayiş keşikçilərinin məlumatına görə, planlı əməliyyatlar zamanı 4059 nəfər saxlanmışdır. Onlardan 768-i terrorçuluqda, 75-i qanunsuz miqrasiya ilə əlaqəli cinayətlərdə, 3216-sı narkotik maddələr və insan alverində şübhəli bilinir.

Bundan əlavə, 3100 döyüş sursatı, 63 əl qumbarası, 17 ədəd silah və 326 kiloqram partlayıcı müsadirə edilmişdir.

Əməliyyatlar Şırnak, Batman, Mardin və Diyarbəkir vilayətlərində keçirilmişdir.

*Təkrar*

# "Azərsu" ASC mühərrik və nasosların satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir.**
**LOT-1:** Mühərriklərin satın alınması
**LOT-2:** Nasosların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Hikmət Qasımov, telefon: 431 47 67/2249) ala bilərlər.

**İştirak haqqı 200 manatdır.**

| | |
|---|---|
| **Təşkilat:** | **"Azərsu" ASC** |
| **VÖEN:** | **9900001751** |
| **Bank:** | **"KapitalBank" ASC-nin 1 saylı Nəsimi rayon filialı** |
| **Kod:** | **200112** |
| **VÖEN:** | **9900003611** |
| **M/h:** | **AZ37NABZ 01350100000000001944** |
| **S.W. I. F. T. BIK:** | **AİİBAZ2X** |
| **H/h :** | **AZ65AİİB 33070019441100216111** |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 iyun 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 21 iyun 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 22 iyun 2018-ci il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# "Təmiz Şəhər" ASC xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:
***Xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması.***

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs: Tural Qüdrətov (telefon: 012-464 41 11).

İştirak haqqı: **400** manat.

***AZN hesabı***
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT:CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Təsnifat kodu:fond 7**
**Büdcə səviyyəsi: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat;*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 iyun 2018-ci il** tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **25 iyun 2018-ci il** saat 15:00-a qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 iyun 2018-ci il saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# "Azərsu" ASC nəqliyyat vasitələrinin satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir.**
**LOT-1:** Qəza bərpa avtomobillərinin satın alınması
**LOT-2:** Xüsusi təyinatlı minik avtomobilinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Hikmət Qasımov, telefon: 431 47 67/2249) ala bilərlər.

**İştirak haqqı 200 manatdır.**

| | |
|---|---|
| **Təşkilat:** | **"Azərsu" ASC** |
| **VÖEN:** | **9900001751** |
| **Bank:** | **"KapitalBank" ASC-nin 1 saylı Nəsimi rayon filialı** |
| **Kod:** | **200112** |
| **VÖEN:** | **9900003611** |
| **M/h:** | **AZ37NABZ 01350100000000001944** |
| **S.W. I. F. T. BIK:** | **AİİBAZ2X** |
| **H/h:** | **AZ65AİİB 33070019441100216111** |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 iyun 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 21 iyun 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 22 iyun 2018-ci il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin 4 saylı ərazi maliyyə hesablaşma mərkəzi *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir.**

**LOT 1** - Yanacağın (odunun) satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Oğuz şəhəri, Xətai küç., 29 ünvanından ala bilərlər (əlaqələndirici şəxs: Mayıl Kərimov, telefon (070) 610 24 99).

**İştirak haqqı:**
**LOT 1 - 50 manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ66AİİB32051019446800201168** |
| **VÖEN** | **6600067641** |
| **Bank:** | **"KapitalBank" ASC-nin Oğuz filialı** |
| **Kod:** | **200684** |
| **VÖEN:** | **9900003611** |
| **M/H:** | **AZ37NABZ01350100000000001944** |
| **S.W.I.F.T:** | **BIK AİİBAZ2X** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06.06.2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 22.06.2018-ci il saat 17:00-a qədər Oğuz şəhəri, Xətai küç., 29 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25.06.2018-ci il saat 11:00-da Oğuz şəhəri, Xətai küç., 29 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 05.05.2018-ci il tarixli nömrəsində dərc edilmiş "Mərkəzi Bank tərəfindən stolüstü əsginas sayğaclarının və banderollayıcı maşının satın alınması", "Mərkəzi Bankın Ehtiyat mərkəzlərinin ehtiyat internet şəbəkəsinə qoşulması xidmətinin satın alınması" və "Mərkəzi Bank tərəfindən xüsusi geyimlərin satın alınması" ilə bağlı kotirovka sorğuları Satınalmalar Komissiyasının 16 may 2018-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir. "Mərkəzi Bank tərəfindən stolüstü əsginas sayğaclarının və banderollayıcı maşının satın alınması" üzrə yenidən kotirovka sorğusu elan edilir.

İştirak haqqı 20 manatdır. İştirak etmək istəyən iddiaçılar iştirak haqqını Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürməlidir:

**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**H/h: AZ42NABZ01452700000000009944**
**Kod: 501004**
**SWIFT: BIKNABZAZ2C**

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 05 iyun 2018-ci il saat 18.00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 06 iyun 2018-ci il saat 15.00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

**Kotirovka sorğusu üzrə əlaqələndirici şəxs - Elvin Şirdanov, telefon: 493 11 22 (daxili 428).**

# "Azercell" şirkəti XXV "TİBO-2018" sərgisində ölkəmizi təmsil edib

"Azercell Telekom" ölkəmizi daha bir beynəlxalq sərgidə təmsil edib.




Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tərkibində Belarusun paytaxtı Minskdə keçirilən XXV "TİBO-2018" beynəlxalq telekommunikasiya sərgi-forumunda "Azercell" özünün ən son yeniliklərini, 3G və 4G texnologiyalarını, korporativ strukturlar üçün M2M texnologiyaları üzərində çalışan müxtəlif xidmətləri, eləcə də şirkətlər üçün mövcud olan mobil və stasionar telefonları ümumi şəbəkəyə birləşdirməyə imkan yaradan Virtual ATS xidmətini təqdim edib.

Belarusun baş naziri Andrey Kobyakov və digər rəsmi şəxslər sərgiyə təşkil olunan VİP tur çərçivəsində Azərbaycan Milli Pavilyonuna baş çəkərək ölkəmizin İKT sahəsində əldə etdiyi yeniliklərlə yaxından tanış olublar.

Dünyanın 15 ölkəsindən 100-dən çox şirkətin öz məhsullarını təqdim etdiyi sərgi-forum informasiya texnologiyaları sahəsində yeni nailiyyətlər və qabaqcıl təcrübə mübadilə üçün qlobal platforma hesab olunur. "TİBO-2018" sərgisini dövlət idarəetmə orqanları, elmi-tədqiqat və tədris müəssisələri, müxtəlif iqtisadi sahələr və mülkiyyət formalı müəssisələrin 18 000-dən çox nümayəndəsi ziyarət edib.

Qeyd edək ki, Azercell dəfələrlə ölkəmizi beynəlxalq sərgi və konfranslarda uğurla təmsil edərək nüfuzlu mükafatlara layiq görülüb.

***"Azərbaycan"***

# BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının binalarında istismar müddəti başa çatmış qaz tipli avtomatik yanğınsöndürmə sistemlərinin yenilənməsi məqsədilə elan olunmuş açıq tender üzrə Tender komissiyasının 14 may 2018-ci il tarixli qərarı ilə "SAFE LİFE" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinin kollektivi Naftalan şəhər qeydiyyat şöbəsinin rəisi Elşən Quliyevə anası

**GÜLARƏ QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rahim Hüseynov ailəsi ilə birlikdə Hikmət, Şahin və İlqara əzizləri

**ƏBÜLFƏZ HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Ali Məhkəmənin sabiq hakimi, əməkdar hüquqşünas

**OQTAY MAQSUDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8770
Sifariş 1509